QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 223 (8816) ŞƏNBƏ, 16 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Düşmənin təbiətimizə vurduğu yaraları da sağaldacağıq

## Prezident İlham ƏLİYEV: "Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib"

**Erməni faşistləri Azərbaycan torpağında 30 il ərzində insanları qətlə yetirib soyqırımları törətməklə, şəhərləri və kəndləri yerləyeksan etməklə kifayətlənməyiblər. İşğal etdikləri ərazilərdə eyni zamanda amansızcasına ekoloji terror törədiblər. Prezident İlham Əliyev onların bu vəhşiliklərini ekosid - ətraf mühitə qarşı genosid adlandırıb.**

Ağac əkmək, bağ salmaq nə qədər xeyirxah işdirsə, onları məhv etmək yüzqat çirkin əməldir. İşğalçılar da məhz öz bəd niyyətlərini həyata keçirərək meşələrdə, həyətlərdə ağacları yox ediblər. Kəlbəcəri, eləcə də Ağdamı və Laçını tərk edərkən mənfur düşmənin meşələri necə qəddarcasına yandırdığını bütün dünya gördü. İşğalçılıqla, həyasızcasına soxulub 30 il yaşadıqları evlərə, meyvəsini dərib yedikləri bağlara, saf havasını udduqları meşələrə bu cür amansız münasibətləri onların kim olduğunu bir daha göstərdi.

Prezident İlham Əliyev bu məsələni öz çıxışlarında, xarici jurnalistlərə müsahibələrində dönə-dönə vurğulayıb. Hələ keçən il dekabrın 1-də Azərbaycan xalqına müraciət edərkən dövlət başçısı Laçın rayonunda 22 min hektar, Kəlbəcər rayonunda 24 min hektar, Zəngilan və Qubadlı rayonlarında 12 min hektar meşə sahələri, işğaldan azad edilmiş digər ərazilərdə də bu cür böyük sərvətimiz olduğunu nəzərə çatdırıb. Meşələrin planetimizin ağciyəri olduğunu qeyd edərək deyib: “Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır”.

Mənfur düşmən öz xəyanətkar əlini çaylarımıza da uzatmışdır. Onların suyundan güc alan elektrik stansiyalarını darmadağın etmiş, avadanlığını söküb aparmış, binalarını dağıtmışdır.

*Ardı 4-cü səh.*

# İlham ƏLİYEV: “Azərbaycan qalib ölkə kimi münasibətləri normallaşdırmağa hazırdır”



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Belarus Prezidenti Aleksandr Lukaşenko iclasın gündəliyi barədə məlumat verdi, ölkəsinin MDB-yə sədrliyi dövründə həyata keçirilən tədbirlərdən danışdı və üzv ölkələrə Belarusa təşkilata rəhbərliyi dövründə göstərdikləri dəstəyə görə minnətdarlıq etdi. Belarus Prezidenti bildirdi ki, Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən bu iclası MDB-nin yaradılmasının 30 illiyi ərəfəsində təşkil edildiyi üçün əlamətdardır.

**Prezident Aleksandr LUKAŞENKO** dedi:

- Ənənəyə uyğun olaraq, müzakirələrimizin əvvəlində sözü Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə vermək istərdim. İlham Heydəroğlu, xahiş edirəm, çıxış edəsiniz.

Dövlətimizin başçısı iclasda çıxış etdi.

*Ardı 2-ci səh.*

# Müstəqillik Günü haqqında

## Azərbaycan Respublikasının Qanunu

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı qəbul olunmuşdur. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə istinad olunmuş, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Beləliklə, “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktına əsasən, Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmişdir.

2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Milli Məclisi 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsi ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan olunduğunu, 1991-ci il oktyabrın 18-də isə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu nəzərə alaraq **qərara alır:**

**Maddə 1.** Mayın 28-i Müstəqillik Günü elan edilsin.

**Maddə 2.** Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilsin.

**Maddə 3.** Müstəqillik Günü və Müstəqilliyin Bərpası Günü hər il bayram günləri kimi qeyd edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2021-ci il*

# Milli Məclisdə “Müstəqillik Günü haqqında” qanun layihəsi qəbul olunub

Oktyabrın 15-də Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri bu iclasın ölkəmizin və xalqımızın həyatında dönüş yaradan tarixi bir gün ərəfəsində keçirildiyini söyləyib. Bildirib ki, oktyabrın 18-də biz Azərbaycanın müstəqilliyinin bərpasının 30 illiyini qeyd edəcəyik.

Sahibə Qafarova deyib ki, ötən əsrin əvvəllərində qurduğu müstəqil dövlətini cəmi 23 ay yaşada bilən Azərbaycan xalqına bu imkan bir də əsrin sonlarında nəsib olub. 1991-ci il oktyabrın 18-də Azərbaycan parlamenti tərəfindən “Dövlət Müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan Respublikasının müstəqilliyi bərpa olunub. Amma müstəqilliyi əldə etmək az idi, onu qoruyub saxlamaq lazım idi. O vaxt ölkəmizin qarşısında duran ən mühüm vəzifələrdən biri yeni yaranan dövlət quruluşunun siyasi, sosial və iqtisadi təməlini qurmaqdan, dəyişən şəraitə uyğun idarəçilik mexanizmləri hazırlamaqdan ibarət idi.

Qeyd olunub ki, yeni dövrün tələbləri ilə ayaqlaşa bilən siyasi rəhbərliyin olmadığı şəraitdə hər hansı düşünülmüş dövlət quruculuğundan söhbət gedə bilməzdi. Nəticədə ölkəmiz son dərəcə mürəkkəb problemlərlə qarşılaşaraq çox çətin vəziyyətə düşmüşdü.

*Ardı 3-cü səh.*

# Müdafiə Nazirliyinin məlumatı

Oktyabrın 15-də səhər saatlarında qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən mülki tibbi yardım maşınından istifadə etməklə Ağdərə istiqamətində bölmələrimizə qarşı növbəti terror-təxribat cəhdi qeydə alınıb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, hərbi qulluqçularımızın sayıqlığı və görülən tədbirlər nəticəsində bu cəhdin qarşısı alınıb və maşında hərəkət edən silahlılar geriyə dönməyə məcbur edilib.

Müdafiə Nazirliyi bildirir ki, mülki tibbi yardım maşınından hərbi məqsədlər üçün istifadə edilməsi qətiyyən yolverilməzdir, terrorçulara xas olan metoddur və beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulmasıdır.

Nazirlik bir daha xəbərdarlıq edir ki, istənilən terror-təxribat xarakterli fəaliyyətlərin qarşısı Silahlı Qüvvələrimiz tərəfindən dərhal və qətiyyətlə alınacaqdır.

❖ ❖ ❖

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri arasında atışma baş verib.

Əvvəlcə qarşı tərəfin bir neçə sərxoş silahlısı digər yoldaşları ilə əlbəyaxa olublar. Sonra onların olduqları yerdə partlayış müşahidə edilib.

İlkin ehtimala görə, atışma nəticəsində qarşı tərəfdən ölən və yaralananlar var.

Nazirlik bildirir ki, baş vermiş hadisəyə Azərbaycan Ordusunun heç bir aidiyyəti yoxdur.

# Zəhmətin «ağ qızıl» bəhəri



**Oktyabr ayının ilk günləri havanın buludlu və yağmurlu keçməsi qanını qaraltmışdı. Əkib-becərdiyi sahələrin ancaq 10 faizini əllə yığdırmışdı. Qalan məhsul isə bəmbəyaz dona bürünmüş tarlada idi.**

*“Allah var, rəhmi də var. Çəkilən zəhmət hədər getməz. Hər şey yaxşı olacaq. Ata-babalarımız oktyabra “ceyranın kölgəyə qaçan ay” deyiblər. Belə getməz. Havalar, çox guman ki, düzələr. Bir də axı zaman o zaman deyil. Alınan təzə pambıqyığan maşınlar işə düşsə, bir də görəcəksən ki, beş-üç günə sahələrdə quru çöpdən başqa heç nə qalmayıb” - bu fikirlərlə “Niva”sına oturub kəndə - evinə qayıtdı. Günorta yeməyindən sonra yayın istisinin ağrı-acısını canından çıxarmaq üçün bir qədər yuxulayıb dincəlmək istədi. Axşam da ertədən yerinə uzanmazdan öncə həyat yoldaşına tapşırdı ki, televizora baxıb hava haqqında məlumata qulaq assın...*

*Bax: səh. 6*

# İlham ƏLİYEV: "Azərbaycan qalib ölkə kimi münasibətləri normallaşdırmağa hazırdır"

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*

- Sağ olun, hörmətli Aleksandr Qriqoryeviç.

Onlayn rejimdə bugünkü sammitimizin təşkilinə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

COVID ilə bağlı çətinlikləri hamımız başa düşürük. Ona görə bu cür ünsiyyət forması bir növ ənənəyə çevrilir, lakin ümid edirəm ki, yaxın vaxtlarda ölkələrimizdə COVID ilə bağlı vəziyyət daha sabit olanda öz həmkarlarımı görəcəyəm.

Hörmətli Aleksandr Qriqoryeviç, hörmətli dövlət başçıları, həmkarlar. Müharibənin başa çatmasından, Vətən müharibəsində Azərbaycanın Qələbəsindən bir il keçməsi ilə əlaqədar bizim regionda yaranmış vəziyyət barədə sizi məlumatlandırmaq istərdim. Bu bir il ərzində nələr baş verməsi, qarşımızda duran çağırışlar və regional inkişafın perspektivləri barədə informasiyanı sizə təqdim etmək istərdim.

Bütövlükdə postmünaqişə dövrü sakit keçir. Ona görə "postmünaqişə dövrü" deyirəm ki, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirib və Azərbaycan Ermənistanla münaqişəni hərbi-siyasi yolla həll edib. 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri tərəfindən üçtərəfli Bəyanat imzalandı. Bu Bəyanat Ermənistan-Azərbaycan münaqişəsinə son qoydu. Hərbi əməliyyatların dayandırılmasında Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin xüsusi rolunu bir daha qeyd etmək istərdim. Bu, hər iki tərəfdən minlərlə insanın ölümündən qaçmağa imkan verdi. Üçtərəfli Bəyanata müvafiq olaraq, Ermənistan öz işğalçı qüvvələrini Azərbaycanın Ağdam, Laçın və Kəlbəcər rayonlarının işğal edilmiş hissəsindən çıxardı. Bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri 300-dən çox şəhəri və kəndi döyüş meydanında azad etdi. Beləliklə, artıq qeyd etdiyim kimi, münaqişə hərbi-siyasi yolla həll edildi. Həmçinin üçtərəfli Bəyanata müvafiq olaraq Azərbaycanın Qarabağ regionuna Rusiya sülhməramlıları yerləşdirildi. Nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı məsələlərin həll edilməsi üçün Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin həmsədrliyi ilə işçi qrup yaradıldı. Azərbaycanın Ağdam rayonunun ərazisində Azərbaycan tərəfi Rusiya-Türkiyə monitorinq mərkəzi yaratdı.

Hazırda Azərbaycanın qarşısında duran əsas problemlər azad edilmiş ərazilərin minalardan təmizlənməsi və dağıdılmış infrastrukturun, binaların, evlərin, Azərbaycan xalqının tarixi abidələrinin bərpasıdır. Müharibədən sonra 150-dən çox vətəndaş minaya düşərək həlak olub, yaxud ciddi xəsarətlər alıb. Ermənistan minalanmış sahələrin tam xəritələrini bizə verməkdən imtina edir. Azərbaycana verilmiş az sayda xəritələrin dəqiqliyi təqribən 25 faizdir. Azad edilmiş ərazilərdə təqribən 30 illik işğal dövründə demək olar ki, bütün binalar və tarixi abidələr dağıdılıb. Azad edilmiş ərazilərdəki 67 məsciddən 65-i tamamilə dağıdılıb. Qismən dağıdılmış qalan iki məsciddə işğalçılar donuz və inək saxlayır, müsəlmanların heysiyyətini qəsdən təhqir edirdilər. Füzuli şəhərində və Füzuli rayonunun bütün kəndlərində binalar və evlər 100 faiz dağıdılıb. Ağdam şəhərində və Ağdam rayonunda da eyni vəziyyətdir. Ağdam şəhəri "Qafqazın Hirosiması" adlandırılır. Cəbrayıl rayonunda cəmi 2 bina salamat qalıb, orada Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları yerləşirdi. Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında da oxşar vəziyyətdir. Şuşa şəhərində işğala qədər mövcud olan 17 məsciddən 16-sı Ermənistan tərəfindən dağıdılıb. Bir məscid "tolerantlıq" nümayiş etdirmək üçün saxlanılıb və İrandan olan qondarma mütəxəssislərin köməyi ilə onu fars məscidi kimi təqdim etməyə cəhd göstərilib. Evlər və ictimai binalar kərpic-kərpic, daş-daş sökülüb, Ermənistana və İrana satılıb. Azərbaycan ərazilərində vandalizmin izləri belədir. Təbiətə çox böyük ziyan vurulub, 60 min hektara yaxın meşə qırılıb, doğranıb, Ermənistana və İrana satılıb. Qızıl yataqları və digər təbii ehtiyatlar qanunsuz istismar edilib. Transsərhəd Oxçuçay çayı bir Avropa şirkətinin iştirakı ilə sistematik olaraq çirkləndirilirdi, bu da artıq nüfuzlu beynəlxalq ekspertlər tərəfindən təsdiq edilmiş ekoloji fəlakətə gətirib çıxarıb. İşğal edilmiş ərazilərdə real mənzərə belədir. Azad edilmiş ərazilərdə bir ildən az müddətdə bir çox ölkələrdən olan minlərlə siyasətçi, diplomat və jurnalist, o cümlədən MDB ölkələrinin nümayəndələri bunları görüblər. Azərbaycan İranla dövlət sərhədinin təqribən 30 il müddətində Ermənistanın nəzarəti altında olmuş 130 kilometrlik hissəsində nəzarəti ötən bir ildə bərpa edib və beləliklə, İrandan Azərbaycanın Cəbrayıl rayonundan keçməklə Ermənistana və daha sonra Avropaya narkotrafik marşrutunu bağlayıb. Azərbaycan-İran sərhədinin digər sahələrində bizim tutub saxladığımız heroinin həcmi əvvəlki illərin müvafiq dövrü ilə müqayisədə iki dəfə artıb. Bu o deməkdir ki, təqribən 30 il müddətində Ermənistan İranla əlbir olaraq Azərbaycanın o vaxt işğal altındakı ərazilərindən Avropaya narkotrafik üçün istifadə edib.

Mən işğal illərində dəfələrlə bəyan etmişdim ki, işğal olunmuş ərazilərdən narkotrafik məqsədilə və beynəlxalq terrorçuların hazırlanması üçün istifadə edilir. Bu gün bu, sübut edilmiş faktdır. Belə adlandırılan "erməni hərbi əsirlər" məsələsinə də toxunmaq istərdim. Azərbaycan müharibə dövründə tutulub saxlanılmış bütün hərbi əsirləri Ermənistanın azərbaycanlı hərbi əsirləri bizə verməsindən daha əvvəl verib. Üçtərəfli Bəyanat imzalanandan iki həftədən çox sonra, keçən il noyabrın axırlarında 62 nəfərdən ibarət təxribat qrupu Ermənistanın Şirak regionundan Azərbaycan Silahlı Qüvvələrinin arxa hissəsinə, artıq işğaldan azad edilmiş ərazilərdə təxribatlar törətmək üçün göndərilmişdi. Azərbaycan hərbi qulluqçuları həmin qrupu tutaraq tərksilah etdi. Beynəlxalq konvensiyalara müvafiq olaraq bu təxribatçılar hərbi əsir hesab edilə bilməz.

Müharibə və münaqişə tarixdə qaldı. Biz ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına dair Ermənistanla danışıqlara başlamağa hazırıq, həmçinin Ermənistan ilə sülh sazişinə dair danışıqlara başlamağa hazırıq. Azərbaycan qalib ölkə kimi münasibətləri normallaşdırmağa hazırdır. Ümidvarıq ki, Ermənistan rəhbərliyi bu tarixi şansı əldən verməyəcək.

Diqqətinizə görə sağ olun.



❖ ❖ ❖

**Prezident Aleksandr LUKAŞENKO:** Qısa və məzmunlu çıxışınıza görə Sizə minnətdaram.

❖ ❖ ❖

Sonra təşkilata üzv ölkələrin dövlət və hökumət başçıları çıxış etdilər.

---

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555; Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 334-VIQD nömrəli, 22 iyun tarixli 348-VIQD nömrəli və 9 iyul tarixli 360-VIQD nömrəli qanunları) 164.1.28-ci maddəsində "5" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2021-ci il mayın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

---

## "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779; 2016, № 1, maddə 21, № 2 (I kitab), maddə 206, № 6, maddə 972; 2017, № 3, maddə 340; 2019, № 5, maddə 802) 20.0.20-ci maddəsində "5" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2021-ci il mayın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

---

## Azərbaycanın müdafiə naziri Fransa nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Fransa Respublikasının Piyada Əleyhinə Minaların Məhv Edilməsi üzrə Milli Komissiyasının (CNEMA) prezidenti Jerar Şesnelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan müdafiə naziri Vətən müharibəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qələbədən sonra azad olunan ərazilərdə aparılan mina və partlamamış döyüş sursatlarından təmizlənmə işləri ilə bağlı məlumat verib.

J.Şesnel isə öz növbəsində Vətən müharibəsində şəhid olanlarla bağlı başsağlığı verdikdən sonra rəhbərlik etdiyi komissiya tərəfindən azad edilən ərazilərin minalardan təmizlənməsi işlərində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə qarşılıqlı əlaqədə lazımi kömək göstərməyə hazır olduqlarını qeyd edib.

---

## Azərbaycan XİN Fransaya işğaldan azad olunmuş ərazilərimizdə mina təhlükəsi barədə məlumat verib

Oktyabrın 15-də xarici işlər naziri Ceyhun Bayramov Fransanın Piyadalar Əleyhinə Minaların Aradan Qaldırılması üzrə Milli Komissiyasının (CNEMA) prezidenti, səfir Jerar Şesnelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyindən (XİN) AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycan ərazilərinin bir hissəsinin 30 ilə yaxın davam edən işğalı və onun ağır nəticələrindən bəhs edib. Ötən il ərazilərimizin hərbi-siyasi yolla azad edildiyini qeyd edən nazir əsas diqqəti Ermənistanın ərazilərimizin məqsədyönlü şəkildə minalarla çirkləndirilməsi siyasətinə yönəldib və azad olunmuş ərazilərdə insan həyatına hədə törədən mina təhlükəsindən danışıb. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra əvvəlcə, ümumiyyətlə, mina xəritələrinin olmasını inkar edən Ermənistanın daha sonradan təqdim etdiyi kiçik qisim mina xəritələrinin etibarlılığının yalnız 25 faiz təşkil etdiyini qarşı tərəfin diqqətinə çatdırıb. Bu günədək 167 vətəndaşımızın mina partlayışından zərər çəkdiyi, onlardan 33 nəfərin həlak olduğu qeyd edilib, həlak olanlar arasında 2 nəfər jurnalistin olduğu vurğulanıb.

Nazir həmçinin işğaldan azad olunmuş ərazilərdəki vəziyyət, burada Ermənistan tərəfindən törədilmiş urbisid, kultursid və ekosid barəsində geniş məlumat verib. Eyni zamanda Fransa nümayəndə heyətinə Azərbaycan hökuməti tərəfindən azad olunmuş ərazilərin bərpa və quruculuğu istiqamətində görülən işlər, bu istiqamətdə əldə olunan nəticələr barədə məlumat təqdim edilib.

Fransanın Piyadalar Əleyhinə Minaların Aradan Qaldırılması üzrə Milli Komissiyasının nümayəndə heyəti qəbula görə təşəkkür edərək, fəaliyyətləri barədə məlumat veriblər. Komissiyanın Azərbaycan tərəfi ilə müvafiq sahədə əməkdaşlıq niyyəti ifadə edilib.

Görüşdə tərəflər həmçinin regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

---

## Moskvada MDB ölkələrinin təhlükəsizlik orqanları və kəşfiyyat xidmətləri rəhbərlərinin müşavirəsinin növbəti iclası keçirilib

Oktyabrın 13-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində MDB ölkələrinin təhlükəsizlik orqanları və kəşfiyyat xidmətləri rəhbərlərinin müşavirəsinin növbəti iclası keçirilib. İclasda Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi general-polkovnik Orxan Sultanov müvafiq nümayəndə heyətləri ilə iştirak ediblər.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, iclasda MDB regionunda mövcud olan təhlükəsizlik mühitinə mümkün təhdidlər, xüsusən Əfqanıstan ətrafında yaranmış vəziyyət, onun beynəlxalq terrorçuluqla mübarizəyə təsiri, habelə MDB ölkələrində ictimai-siyasi sabitliyin pozulmasına yönələn və bəzən üçüncü ölkələrin ərazisindən həyata keçirilən pozuculuq fəaliyyətinin qarşısının alınması, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb. Müzakirə olunan mövzular istiqamətində uğurlu nəticələrin əldə olunmasının iştirakçı dövlətlərin birgə səyləri nəticəsində mümkün olduğu xüsusi qeyd edilib. Bildirilib ki, destruktiv qüvvələrə qarşı səmərəli və effektiv mübarizə aparılması, MDB məkanında təhlükəsizliyin qorunub saxlanması, ölkələrin milli maraq və mənafelərinin etibarlı təmin olunması üçün xüsusi xidmət orqanları arasında əməkdaşlıq münasibətləri daha da genişlənməli, mütəmadi analiz və monitorinqlər keçirilməklə faydalı məlumat mübadiləsi işi daim təkmilləşdirilməlidir.

Qeyd olunub ki, bu gün dünyanın bir çox yerlərində silahlı münaqişə ocaqlarının olması, nəzarətsiz ərazilərin mövcudluğu, narkotik qaçaqmalçılığı və terrorçu-ekstremist qruplaşmaların öz fəaliyyətlərini aktiv şəkildə davam etdirməsi əmin-amanlığa ciddi təhdidlər yaratmaqla yanaşı, təhlükəsizlik və kəşfiyyat strukturlarını da yeni çağırışlarla üzbəüz qoyub. Bu səbəbdən də müvafiq orqanlar arasında əlaqələndirilmiş və sistemli işin daha yüksək səviyyədə təşkil olunmasının, zərurət olduğu təqdirdə pozucu ünsürlərə qarşı birgə əməliyyatların keçirilməsinin vacibliyi vurğulanıb.

Nümayəndə heyətlərinin rəhbərlərini Rusiya Prezidenti Vladimir Putin də videoformatda qəbul edib, müzakirəyə çıxarılan məsələlərlə bağlı öz tövsiyələrini verərək, MDB-yə üzv ölkələrin təhlükəsizliyi əleyhinə olan təhdidlərə qarşı MDB kəşfiyyat xidmətlərinin potensialından istifadə olunmasının önəmini vurğulayıb və tədbir iştirakçılarına gələcək işlərində uğurlar arzulayıb.

---

## *Azərbaycan XİN:* Ermənistanın təxribatı vəziyyətin gərginləşdirilməsinə xidmət edir

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) oktyabrın 14-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan snayper atəşi nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Həmzəyev Əfqan Bəhram oğlunun şəhid olması ilə bağlı məlumat yayıb.

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən bildirilib.

Məlumatda deyilir: "Bu terror-təxribat əməlini kəskin şəkildə qınayırıq. Ermənistanın dəstəklədiyi qanunsuz erməni silahlı dəstələri tərəfindən törədilən bu təxribat Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərinin kobud pozulmasıdır və bölgədəki vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirildiyi bir vaxtda erməni silahlı dəstələrinin törətdiyi bu təxribat Ermənistan tərəfinin revanşist mövqeyini nümayiş etdirməklə yanaşı, Rusiya sülhməramlılarının fəaliyyətinə əngəl törətmək cəhdlərini göstərir.

Allah şəhidimizə rəhmət eləsin".

Əvvəli 1-ci səh.

# Milli Məclisdə “Müstəqillik Günü haqqında” qanun layihəsi qəbul olunub




Hərc-mərclik, hakimiyyət davası ölkəni idarəedilməz vəziyyətə gətirmiş, cəmiyyətdə və dövlətdə dağılma meyilləri qarşısıalınmaz xarakter almış, qanunsuz silahlı dəstələrin özbaşınalığı real vətəndaş müharibəsi təhlükəsi törətmişdi. Fürsətdən istifadə edən Ermənistan silahlı qüvvələri torpaqlarımızın işğalını gündən-günə genişləndirirdilər.

Sahibə Qafarova həmçinin bildirib ki, bütün bu proseslərin məntiqi nəticəsi kimi dövlətin varlığı, xalqın gələcək müqəddəratı sual altında qalmışdı. Müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin aqibətini yaşamaq təhlükəsi qarşısında idi.

Parlamentin Sədri vurğulayıb: “Görünür, bu da taleyin bir qisməti idi ki, xalqımızın bir əsrdə ikinci dəfə əldə etdiyi müstəqilliyi qorumaq üçün məhz Ulu Öndər Heydər Əliyev kimi siyasət dahisi Azərbaycanın idarəçilik sükanı arxasında olmalı idi. 1993-cü ilin iyununda böyük siyasi və dövlət xadiminin hakimiyyətə qayıtması Azərbaycanın sivil dünyanın bir parçası olmaq imkanının reallaşmasına şərait yaratdı. Bu gün tam inamla söyləmək olar ki, əgər o vaxt ölkədə baş verən hadisələrə Ümummilli Lider Heydər Əliyevin şəxsi müdaxiləsi olmasaydı, müstəqil Azərbaycan dövlətinin varlığına son qoyula bilərdi”.

Milli Məclisin Sədri qeyd edib ki, Ulu Öndərin böyük siyasətə qayıdışı 1993-cü il iyunun 15-də onun Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ilə başlanıb. Diqqətə çatdırılıb ki, Ümummilli Liderimiz Prezident seçilənədək dörd ay parlamentə rəhbərlik edib. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun ilk addımları məhz bu dövrdə və bu binada başlanıb. Ulu Öndər Heydər Əliyevin Azərbaycan parlamentinin sədri seçilməsi bütün digər məsələlərlə yanaşı, ölkəmizdə qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırıb və bu qurumun peşəkar nümayəndəli orqan kimi formalaşması istiqamətlərini müəyyənləşdirməyə imkan verib.

Sahibə Qafarova bildirib ki, Ulu Öndərin başladığı strateji inkişaf xəttini yaradıcı surətdə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət Azərbaycan xalqına və dövlətinə heyrətamiz uğurlar gətirib. Onun rəhbərliyi ilə dövlətimizin ən böyük problemi həll edilib, torpaqlarımızın 30 illik işğalına son qoyulub, ərazi bütövlüyümüz bərpa olunub, Azərbaycana qarşı ərazi iddiasına düşənlərin layiqli cavabı verilib. Bu gün Azərbaycan Respublikası gələcəyə inamla baxan, geniş bir bölgədə söz sahibi olan qüdrətli bir dövlətdir. İnamla söyləmək olar ki, möhtərəm Prezidentimizin uzaqgörən siyasəti sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq, dünyanın sayılıb-seçilən dövlətləri sırasında yerini qoruyub saxlayacaq və daha da möhkəmlənəcəkdir.

Parlamentin Sədri vurğulayıb ki, Azərbaycanın dövlət müstəqilliyi ölkəmizin hər bir vətəndaşı, bizim hər birimiz üçün ən böyük sərvətdir. Əminəm ki, bu sərvəti qoruyub saxlamaq, daha da zənginləşdirmək üçün hər kəs öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirəcək.

Sonra iclasda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının otuzuncu ildönümü münasibətilə deputatları ürəkdən təbrik edən Sahibə Qafarova Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlanmasını, onlara Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətlərində yeni uğurlar arzulamağı təklif edib.

Çıxışını davam etdirən Sahibə Qafarova Üçüncü Avrasiya Qadın Forumunda iştirakla bağlı parlament nümayəndə heyətinin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səfəri barədə də məlumat verib. Qeyd edib ki, 2015-ci ildən keçirilən bu forum müasir dünyada qadınların rolunun müzakirə edilməsi və qlobal problemlərin həllinə ümumi yanaşmaların müəyyənləşdirilməsi üçün böyük beynəlxalq platformaya çevrilib. Tədbirin təşkilatçıları Rusiya Federal Məclisinin Federasiya Şurası və Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasıdır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, budəfəki forumun əsas mövzusu sabit və təhlükəsiz gələcək qurulmasında qadınların roluna həsr edilib, tədbirdə bir sıra digər mövzular üzrə də müzakirələr aparılıb.

Sahibə Qafarova forumun plenar iclasında çıxış edərkən ölkəmizdə qadınlarla əlaqədar həyata keçirilən dövlət siyasətinin tarixi və uğurları barədə məlumat verib. Forum iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən işlər bu siyasətin bütün istiqamətlərdə əhəmiyyətli irəliləyişinə səbəb olub. Ölkəmizdə aparılan sistemli islahatlar, regionların sosial-iqtisadi inkişafına yönəlmiş geniş dövlət proqramları qadınların həyatına müsbət təsir göstərir.

S.Qafarova tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qadın hüquqlarının müdafiəsi, dövlət və cəmiyyət həyatında qadınların rolunun gücləndirilməsi ilə bağlı fəaliyyətinin uğurlara dəyərli töhfələr verdiyini xüsusi vurğulayıb. Bildirib ki, Azərbaycanın birinci xanımı özünün çoxşaxəli fəaliyyəti ilə qadınlarımızı öz potensialını daha böyük əzm və cəsarətlə reallaşdırmağa ruhlandırır.

Parlamentin Sədri nitqində artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin son 30 ildə qadınlar da daxil olmaqla bir çox Azərbaycan vətəndaşının həyatına son qoyduğunu xatırladıb və bu münaqişənin törətdiyi problemlərin, o cümlədən qaçqın və məcburi köçkünlərin üzləşdiyi çətinliklərin qadınların da çiyinlərinə düşdüyünü qeyd edib.

Bildirilib ki, ötən ilin noyabrında Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanat keçmiş Qarabağ münaqişəsinə son nöqtəni qoyub və 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbədən sonra Cənubi Qafqaz regionunda qadınlarımızın cəmiyyətin bütün sahələrinə daha fəal cəlb edilməsi üçün perspektivlər yaradan yeni reallıqlar ortaya çıxıb.

S.Qafarova bildirib ki, nümayəndə heyətimizin üzvləri Hicran Hüseynova, Sevinc Fətəliyeva, Pərvin Kərimzadə, Ülviyyə Həmzəyeva, Fatma Yıldırım forumda çox fəal iştirak edib, müxtəlif mövzular ətrafında müzakirələrdə çıxış edərək münasibətlərini bildiriblər.

Sahibə Qafarova forumun davam etdiyi günlərdə Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri xanım Valentina Matviyenko ilə, BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə direktoru xanım Aliya əl-Yassir ilə görüşlərinin keçirildiyini də diqqətə çatdırıb. Aparılan söhbətlər zamanı digər məsələlərlə yanaşı, baş vermiş Vətən müharibəsi və torpaqlarımızın işğaldan azad edilməsi barədə də məlumat verdiyini deyib. Milli Məclisin Sədri həmsöhbətlərinə bildirib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti sayəsində ərazilərimizin Ermənistan tərəfindən 30 illik işğalına son qoyulub. Vurğulayıb ki, ötən ilin noyabrında Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış üçtərəfli Bəyanatla keçmiş Qarabağ münaqişəsi tarixə qovuşub. Hazırda Cənubi Qafqaz regionunda tamamilə yeni şərait yaranıb, Azərbaycan işğaldan azad olunan ərazilərinin bərpasına başlayıb.

Qeyd edilib ki, Ermənistan işğal altında saxladığı şəhər və kəndlərimizi tamamilə dağıdıb, müharibədən sonra isə regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə mane olmaq üçün təxribatlar törədir, xüsusən minalanmış ərazilərin xəritələrini verməkdən də imtina edir.

Parlamentin Sədri görüşlərdə onu da qeyd edib ki, bu ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib, iki yeni rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Bildirib ki, nəqliyyat əlaqələrinin bərpa edilməsi, Zəngəzur dəhlizinin işə salınması bölgənin inkişafına, sülhün və təhlükəsizliyin təmin edilməsinə böyük töhfə olacaq.

Parlament nümayəndə heyətinin Sankt-Peterburqa səfəri barədə məlumatı yekunlaşdıran Milli Məclisin Sədri Sahibə Qafarova səfərin uğurla keçdiyini bildirib və bununla əlaqədar nümayəndə heyətinin üzvlərinə minnətdarlığını ifadə edib.

Sonra plenar iclasda 10 məsələdən ibarət gündəlik təsdiqlənib.

Cari məsələlərin müzakirəsində deputatlar Zahid Oruc, Sahib Alıyev, Fazil Mustafa, Nizami Səfərov, İqbal Məmmədov, Kamilə Əliyeva, Etibar Əliyev, Cavid Osmanov, Soltan Məmmədov, Ziyafət Əsgərov, Bəhruz Məhərrəmov bir sıra ciddi məsələlərə toxunublar. Çıxışlarda 18 il əvvəl oktyabrın 15-də Azərbaycan Prezidenti seçilən İlham Əliyevin dövlətçiliyin möhkəmlənməsi istiqamətində nəhəng fəaliyyəti qeyd olunub, bu illər ərzində Azərbaycanı dünyanın ən qüdrətli ölkələrindən birinə çevirməsi, Vətən torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyümüzü təmin etməsi xüsusi vurğulanıb. Deputatlar bir sıra beynəlxalq əhəmiyyətli və daxili məsələlərlə bağlı düşüncələrini də parlamentin diqqətinə çatdırıblar.

Milli Məclis gündəlikdəki məsələlərin müzakirəsinə “Müstəqillik Günü haqqında” qanun layihəsinə üçüncü oxunuşda baxılması ilə başlayıb. Qanun layihəsi barədə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin məlumatı dinlənilib. Çıxışını yekunlaşdıran Milli Məclis Sədrinin birinci müavini vurğulayıb ki, birinci və ikinci oxunuşlar zamanı parlamentdə aparılan müzakirələrdə, həmçinin mediada çıxış edən deputatlar Prezidentin təqdim etdiyi qanun layihəsinin mahiyyətini və məzmununu cəmiyyətə çox dəqiq çatdırıblar. Qeyd edib ki, bu qanunun qəbulu müstəqilliyimizin bərpasının 30 illiyi ərəfəsində cəmiyyətimizə, xalqımıza verdiyimiz ən böyük töhfələrdən biridir. Bu dəfə biz bu bayramı ərazi bütövlüyümüzün təmin olunduğu şəraitdə, qalib xalq formasında qeyd edəcəyik.

Sonra iclasda “Müstəqillik Günü haqqında” qanun layihəsi üçüncü oxunuşda səsə qoyulub və qəbul edilib.

“Taxıl haqqında” qanunda dəyişiklik edilməsi barədə məsələni parlamentə Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev təqdim edib. Bildirilib ki, qanunun 8-ci maddəsinə edilən və dəqiqləşdirmə xarakteri daşıyan bu dəyişiklik “Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin yaradılması haqqında” 2021-ci il 7 oktyabr tarixli Prezident Fərmanına əsasən, Dövlət Taxıl Fondunun Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinin sərəncamına verilməsi ilə əlaqədardır.

Müzakirədə deputat Əli Məsimlinin fikirləri və təklifi dinlənilib. Səsvermə zamanı deputatlar “Taxıl haqqında” qanunda dəyişiklik edilməsinə razılıq veriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəlikdəki növbəti 4 məsələ ikinci oxunuşda parlamentə təqdim olunmuş qanun layihələridir. İclasda həmin qanun layihələri bu oxunuşun prosedur qaydalarına uyğun olaraq müzakirə edilib.

“Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsini ikinci oxunuşda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili parlamentə təqdim edib. Bildirib ki, bu qanun layihəsi malların Azərbaycan Respublikası gömrük ərazisinə daxildə emal xüsusi proseduru altında gətirildiyi zaman tələb olunan maliyyə təminatının məcburi deyil, fakültativ hal kimi müəyyən olunmasını nəzərdə tutur. Bu dəyişiklik sahibkarlığın inkişafı, daxili istehsalın genişlənməsi və sahibkarlığın bu sahədə olan hər hansı çətinliyinin qarşısının alınması məqsədini daşıyır.

Səsvermə zamanı Gömrük Məcəlləsində dəyişikliyi nəzərdə tutan qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda “Valyuta tənzimi haqqında”, “Kredit ittifaqları haqqında”, “Banklar haqqında”, “Poçt haqqında”, “Mühasibat uçotu haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” və “Kredit büroları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” qanun layihəsini ikinci oxunuşda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə təqdim edib. Bildirilib ki, layihə “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” 2018-ci il 4 may tarixli Qanunundan irəli gələn məsələlərin tənzimlənməsi ilə əlaqədardır. Təklif olunan qanun layihəsi maliyyə bazarı institutlarında mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının tərtibi, tətbiqi və dərci ilə bağlı məsələləri özündə ehtiva edir.

Məlumat dinlənildikdən sonra qanun layihəsi səsə qoyulub və ikinci oxunuşda qəbul olunub.

İclasda Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov “Əhalinin sağlamlığının qorunması haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib.

Müzakirələrdə deputatlar Razi Nurullayev, Vüqar Bayramov, Aydın Hüseynov, Rüfət Quliyev, Musa Quliyev, Rəşad Mahmudov, Məlahət İbrahimqızı, Qüdrət Həsənquliyev səhiyyə sahəsi ilə bağlı bir sıra fikirlərini bölüşüblər. Komitə sədri sualları cavablandırıb, səslənən fikirlərə münasibət bildirib.

Qanun layihəsi səsə qoyulub və ikinci oxunuşda qəbul edilib.

Gündəlikdəki növbəti məsələni də Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib. Bildirilib ki, ikinci oxunuşda müzakirəyə çıxarılmış “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, “Müflisləşmə və iflas haqqında”, “İcra haqqında”, “Banklar haqqında”, “Teatr və teatr fəaliyyəti haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında” və “Məşğulluq haqqında” qanunlarda dəyişiklik edilməsi barədə” qanun layihəsi parlamentin 6 komitəsində müzakirədən keçib. Adıçəkilən qanunlara təklif olunan dəyişiklik səhiyyədə icbari tibbi sığortanın tətbiqi ilə bağlıdır.

İclasda bu qanun layihəsi də ikinci oxunuşda dəstəklənib.

Sonra Milli Məclis birinci oxunuşda müzakirəyə çıxarılmış 4 qanun layihəsinə baxıb.

Parlamentdə “Dövlət rüsumu haqqında” qanunda dəyişiklik edilməsi barədə birinci oxunuşda qanun layihəsini ətraflı şərh edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili vurğulayıb ki, 1996-cı ildə qəbul olunmuş “Torpaq islahatı haqqında” qanuna görə Azərbaycanda 2032 kolxoz və sovxoz ləğv olunmuş, bunun əvəzində minlərlə ailəyə torpaq payı verilmişdi. Bu, o zaman Ulu Öndər Heydər Əliyev tərəfindən MDB-də keçirilmiş ilk torpaq islahatı olmuşdu. Azərbaycanda sahibkarlığın inkişafına, qida təhlükəsizliyinin və əhalinin məşğulluğunun təmin olunmasına çox böyük təkan vermişdi. Aparılan təhlillər ötən 25 il ərzində islahatların icrası zamanı bir sıra nöqsanlara yol verildiyini aşkara çıxarıb.

Layihəyə görə, “Dövlət rüsumu haqqında” qanunda edilən dəyişiklik torpaq islahatı dövründə pay torpağı almış, lakin müvafiq hüquqi sənədlərlə təmin edilməmiş torpaq sahiblərinin torpaq üzərində hüquqlarının təsdiqi zamanı dövlət rüsumundan azad edilməsini nəzərdə tutur. Bu, həm mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə daşınmaz əmlakın dövlət reyestrindən çıxarışa (30 manat miqdarında dövlət rüsumu), həm də texniki sənədlərin verilməsinə (50 manat miqdarında dövlət rüsumu) şamil ediləcək, yəni vətəndaş 80 manatı ödəməkdən azad olunacaq və həmin məbləğ dövlət büdcəsindən ödəniləcək.

Müzakirədən sonra komitə sədri Tahir Mirkişili deputatlar Musa Quliyev və Razi Nurullayevi maraqlandıran suallara cavab verib. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda dəstəklənib.

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsini birinci oxunuşda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov təqdim edib. Bildirilib ki, bu layihə qanunsuz sahibkarlıqla məşğul olma istiqamətində inzibati araşdırma tədbirlərinin səmərəliliyini artırmaq məqsədi daşıyır. Dəyişikliyə görə, qanunsuz sahibkarlıqla məşğul olma xətası törədildikdə müddətin keçməsi ilə bağlı inzibati məsuliyyətdən azadetmə üçün daha uzun müddət nəzərdə tutulması, habelə bu xətanın da aşkar edildikdən sonra inzibati araşdırma aparılan inzibati xətalar dairəsinə aid edilməsi təklif olunur.

Deputatlar səsvermə zamanı bu qanun layihəsinə birinci oxunuşda razılıq veriblər.

Gündəlikdəki növbəti iki məsələni Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev təqdim edib. Bir-biri ilə bağlı olan “Təhsil haqqında” və “Peşə təhsili haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini birinci oxunuşda şərh edən komitə sədri qeyd edib ki, hər iki sənəddə dəqiqləşdirmə ilə yanaşı, mütərəqqi olan bəzi məsələlər də öz həllini tapır. Belə ki, Azərbaycan Respublikasının təhsil üzrə milli kvalifikasiyalar çərçivəsinə görə, yüksək texniki peşə təhsili və orta ixtisas təhsili kvalifikasiyalar çərçivəsinin beşinci səviyyəsinə uyğundur. Azərbaycanın milli təhsil standartına görə isə milli kvalifikasiyalar çərçivəsinin beşinci səviyyəsi ali təhsilin qısa dövrü kimi müəyyən edilib. Beləliklə, istər texniki peşə təhsili, istərsə də orta ixtisas təhsili subbakalavr kimi qanunda təsbit edilib və bunların hüquqları bərabərləşdirilib.

Parlamentə daxil olmuş layihələrə görə, “Təhsil haqqında” qanuna təklif olunan dəyişikliklər yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin təşkilində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada kredit sisteminin tətbiqi və bu təhsil səviyyəsi üzrə subbakalavrların topladıqları kreditlərin ali təhsil müəssisələrində nəzərə alınması məqsədi daşıyır. “Peşə təhsili haqqında” qanunda edilən dəyişiklik isə peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsini müvəffəqiyyətlə başa vuran məzunların (subbakalavrların) topladıqları kreditlərin bakalavriat səviyyəsinin uyğun ixtisaslarında ali təhsil müəssisələri tərəfindən nəzərə alınmasını, yüksək texniki peşə səviyyəsi üzrə peşə təhsili haqqında dövlət sənədinin ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaratmasını və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılmasını nəzərdə tutur.

Qanun layihələrinin müzakirəsində deputatlar Fazil Mustafa, Razi Nurullayev, Etibar Əliyev, Sahib Alıyev, Könül Nurullayeva, Aydın Mirzəzadə, Ceyhun Məmmədov, Elşad Mirbəşir oğlu, Emin Hacıyev rəy və təkliflərini bildiriblər.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub və hər ikisi birinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin növbəti iclası başa çatıb.

# Böyük Britaniyanın müvafiq qurumları ilə sosial sahədə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Ceyms Şarpın görüşü olub.

Nazir Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edərək Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı yurd yerlərimizin azad edildiyini, erməni faşizminin bütün infrastrukturu talan edərək dağıtdığı həmin ərazilərdə geniş quruculuq işləri aparıldığını bildirib. O, dost ölkələrin də bu prosesdə iştirakının ölkəmiz üçün prioritet olduğunu qeyd edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanda aparılan sosial islahatları diqqətə çatdıran S.Babayev həssas qrupların sosial müdafiəsi istiqamətində atılan addımları, ölkəmizin yeni brendi olan DOST konsepsiyasını diqqətə çatdırıb. Əlillik sahəsində islahatlar, reabilitasiya sisteminin müasirləşdirilməsi və effektivliyinin, əlçatanlığının artırılması üçün aparılan işlər barədə məlumat verib. Əlilliyi olan şəxslərin məşğulluq imkanlarının artırılması üçün “British Council” ilə birgə icra edilən layihənin əhəmiyyətini qeyd edib. Demoqrafik tədqiqatların aparılması və kadr potensialının yaradılması sahəsində BP şirkəti ilə əməkdaşlığın müsbət nəticələrinin olduğunu bildirib.

Azərbaycanla Böyük Britaniyanın əlaqələrinin uğurla inkişaf etdiyi, Böyük Britaniyanın müvafiq qurumları ilə əmək, məşğulluq, sosial müdafiə, əlilliyi olan şəxslərin reabilitasiyası, sosial xidmətlərin “bir pəncərə”dən təqdim edilməsi sahəsində əməkdaşlığın genişləndirilməsi, fəal təcrübə mübadiləsi üçün də böyük potensialın olduğu qeyd edilib.

C.Şarp ikitərəfli əməkdaşlıq əlaqələrinin daim genişləndiyini, sosial sahədə əlaqələrin inkişafı, təcrübə mübadilələrinin aparılması üçün mövcud imkanlardan istifadənin qarşılıqlı fayda verə biləcəyini deyib.

Görüşdə nazirliklə Böyük Britaniyanın müvafiq qurumları arasında sosial sahədə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



## Hadrut qəsəbəsi də qısa zamanda büsbütün yenidən qurulacaq

**44 günlük müharibədə Qarabağın istənilən yaşayış məntəqəsinin işğaldan azad edilməsi uğrunda gedən hər döyüş qəhrəmanlıq salnaməsi kimi şanlı tariximizin unudulmaz səhifəsidir. Bu baxımdan Prezident İlham Əliyevin Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündəki çıxışında Hadrutun azad edilməsini bütün döyüşlərdən fərqli, xüsusi məna daşıyan hadisə kimi qiymətləndirməsi təbiidir.**

Həqiqətən də, Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyan unikal bir döyüş idi. Bu əməliyyatın uğurla başa çatması ordumuza müharibə səhnəsində ciddi üstünlük qazanmağa və düşməni ildırım sürəti ilə darmadağın etməyə imkan yaratdı. Maraqlı bir fakt: Ermənistan ordusunda 10 mindən çox fərarinin 1500-ü Hadrutda döyüş mövqelərini qoyub qaçan erməni əsgərlərinin payına düşmüşdür. Məhz bu döyüşdə erməni hərbi maşınının onurğa sütunu qırıldı və beyni qıc olub iflic vəziyyətinə düşdü. Məhz Hadrutda onlar faciəvi məğlubiyyətin qaçılmaz olduğunu anladılar.

Ali Baş Komandan Hadrut əməliyyatının Ermənistan rəhbərliyinə və Ermənistan ordusuna qəfil zərbə kimi təsir etdiyini belə ifadə etmişdi: "Onlar gözləmirdi ki, biz Cəbrayıldan sonra Hadrut istiqamətinə gedəcəyik. Onlar hesab edirdilər ki, biz Füzuli istiqamətinə gedəcəyik. Baxmayaraq ki, Hadrutda onların çox böyük canlı qüvvəsi var idi, bizi gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək, doğrudan da, çox böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik".

Əməliyyatın ən böyük uğuru ondan ibarət idi ki, Azərbaycanın silahlı qüvvələri düşməni nəzərdə tutulduğu kimi ən az itkilərlə məğlub etdi. Buna baxmayaraq, Ermənistan rəhbərliyi Hadrutu itirdikdən bir neçə gün sonra da qəsəbənin onlarda olduğunu bəyan edir, bunu "təsdiq" edən "süjet"ləri həvəslə tirajlayırdılar. Hətta hamını inandırmağa çalışırdılar ki, bu, məğlubiyyət yox, taktiki geriləmə əməliyyatıdır. Bu məqamda dövlət başçısının ermənilərin yalanları və saxtakarlığı haqqında söylədikləri yerinə düşür: "Onların tarixi də saxtadır, keçmişi də saxtadır, dövlətçiliyi də saxtadır, mifologiyası da saxtadır. Sadəcə olaraq dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb. Hadruta ermənilər İrandan XIX əsrdə köçürülüblər. Bunu hamı bilir. O vaxta qədər burada erməni yaşamırdı".

Belə bir reallığa, daha dəqiq desək, saxtakar imiclərinə baxmayaraq, ermənilər yenilməz orduya, müstəsna real gücə, hərbi və intellektual üstünlüyə malik olduqlarına yenə də arxayın idilər. Əmin idilər ki, Azərbaycan Ordusuna qalib gəlmək "müdrik"liyi, "qədim"liyi və "döyüşkən"liyi ilə öyünməkdən bezməyən Ermənistan üçün bir stəkan su içmək qədər asandır. Lakin Ermənistan ordusu işğal etdikləri ərazilərdən geri çəkildikcə acizliklərini anladılar və Azərbaycan Ordusunun yenilməz gücünü dərk etdilər.

Məhz bu amilə görə Ali Baş Komandan hesab edir ki, Hadrut əməliyyatının həm strateji, həm tarixi, həm mənəvi-psixoloji baxımdan çox böyük əhəmiyyəti vardır. Dövlət başçısı çıxışında ermənilərin işğal altındakı torpaqları heç vaxt özlərinə doğma saymadıqlarına, işğal müddətində heç nəyi dəyişdirmədiklərinə, bu ərazilərdə kütləvi səfalətin hökm sürdüyünə, 30 ildə erməni diasporasından yığılan pulların necə və hara xərcləndiyinə diqqət yetirdi: "Onlar hər il marafon düzəldirdilər, hər il təqribən yüz milyon dollardan çox pul yığılırdı. Onu vurun 30 ilə, görün təxminən nə qədər pul edir. Mən indi bütün bu bölgələrə gedirəm - Hadrutda da, Hadrutun kəndlərinin bir çoxunda da, Xocalının Çanaqçı, Sığnax kəndlərində də olmuşam. Azıx olsun, Tuğ olsun, Susanlı olsun və başqa kəndlər - hamısı bərbad vəziyyətdədir. İndi bizim inşaatçılar bəzi kəndlərə gedirlər, təhlil aparırlar ki, binaların 95 faizi yararsız vəziyyətdədir. Bəs yığılan bu milyardlar hara gedib? Deməli, Ermənistan rəhbərliyi, onun keçmiş oğru rəhbərliyi, sadəcə olaraq, dünyanın zəngin ermənilərini aldadaraq, marafonlar düzəldərək o pulları cəlb edib özləri üçün bildikləri kimi xərcləyiblər".

Bu gün Hadrut yenidən qurulur - dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkilir, "Hadrut" yarımstansiyası tikilir, dağıdılmış evlərin əvəzində yeniləri inşa olunur, müasir infrastruktur yaradılır və s. Dövlət başçısı Hadrutu nikbin gələcəyin gözlədiyini bildirmişdir: "Hadrutun tarixi hissəsi yenidən qurulacaq. Artıq binaların təmiri ilə bağlı ilkin görüntülər var və eyni zamanda qəsəbədə müşahidə olunan bu səliqəsizlik adamı incidir. Qəsəbəni bu gündə təsəvvür etmək mümkün deyil. Ona görə biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## 16 oktyabr 2020-ci il
### ZƏFƏR gündəliyi

Oktyabrın 16-na keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti yenə də gərgin olaraq qalıb.

İşğaldan azad edilmiş Cəbrayıl və Hadrut istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini, eləcə də cəbhə xəttinə yaxın kəndləri düşmən dünən gün ərzində raket, artilleriya və minaatanlardan atəşə tutub. Gecə ərzində cəbhənin bəzi istiqamətlərində düşmən fəallaşmağa cəhd göstərib. Qoşunlarımız tərəfindən bunun qarşısı alınıb, düşmən ciddi itki verib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.



❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınıb. Bunun qarşısını almaq məqsədilə Ermənistan rəhbərliyi Gorus və Turşsu yaşayış məntəqələrinin avtomobil yollarında hərbi polisin komendant postlarını qurub.

5-ci dağatıcı alayın müdafiə zolağında mövqe tutan şəxsi heyət arasında xeyli sayda ölən və yaralanan olub. Alayın bölmələrində ərzaq və döyüş sursatı çatışmazlığı açıqlanıb.

10-cu alayın müdafiə zolağına könüllüləri daşıyan avtomobil texnikasının vurulması nəticəsində ölən və yaralanan var. Geri çəkilən düşmən xeyli sayda avtomobil və zirehli texnikanı mövqedə buraxaraq qaçıb.

9-cu motoatıcı alayın müdafiə zolağında artilleriya batareyası məhv edilib, alay komandirinin müavini isə yaralanıb. Dağlıq Qarabağ ərazisinə gələn muzdluların bir qisminin döyüşə girməkdən imtina etməsi məlum olub.



❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verib. Ermə-



nistanın humanitar atəşkəs elan olunan zaman Gəncə və Tərtərə artilleriya zərbəsi endirməsinə sərt reaksiya verən Ali Baş Komandan deyib ki, bu namərd hücumlar Azərbaycanı yolundan döndərə bilməz, xalqın iradəsini qıra bilməz: "Biz öz ərazi bütövlüyümüzü bundan sonra da bərpa etməyə davam edəcəyik".

Prezident həmçinin ordumuzun uğurlu hərbi əməliyyatlarından söz açaraq bildirib ki, artıq Hadrut qəsəbəsi Azərbaycanın nəzarətindədir, Füzulinin ətrafında kəndlərin mütləq əksəriyyəti bizdədir: "Artıq Füzuli bizim gözümüzün qabağındadır. Ondan sonra cənub istiqamətində də irəliləmişik. Şimalda Murovdağ mövqeləri bizdədir, Suqovuşan bizdədir. Yəni bütün istiqamətlər üzrə böyük uğurlar əldə etdik və bu proses davam edir. Hesab edirəm və əminəm ki, Azərbaycan xalqı bunu diqqətlə izləyir. Xüsusilə o kəndlərin sakinləri ki, o kəndlər işğaldan azad edilir, onlar üçün əlbəttə, bu, tarixi günlərdir".

❖ ❖ ❖




Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından başlayaraq Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutub. Səhər saat 06 radələrindən 08-ə qədər Tərtər, Ağdam, Goranboy və digər rayonlara 220-dən çox mərmi düşüb.

❖ ❖ ❖

Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində daha bir xoş xəbəri paylaşıb:

"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Ermənistan uydurma məlumatlar yayaraq Hadrut qəsəbəsinin hələ də onların nəzarətində olduğunu bildirib. Azərbaycan Müdafiə Nazirliyi isə işğaldan azad olunan Hadrut qəsəbəsindən yeni videogörüntülər yaymaqla növbəti erməni yalanını ifşa edib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



## Düşmənin təbiətimizə vurduğu yaraları da sağaldacağıq

### **Prezident İlham ƏLİYEV:** "Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib"

*Əvvəli 1-ci səh.*

İşğal dövründə erməni vandalları eləcə də çaylarımızın suyunun qabağını kəsmiş, bir neçə rayonda 100 min hektardan çox torpaq susuzluqdan yanaraq cadar-cadar olmuşdur. Prezident İlham Əliyev bu il sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxış edərkən demişdir: "Ermənistan keçmiş işğal olunmuş ərazilərdə bizim su ehtiyatlarımızdan süni ekoloji fəlakət yaratmaq üçün istifadə edib. 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası "Azərbaycanın cəbhəboyu rayonlarının sakinləri qəsdən sudan məhrum edilir" adlı qətnamə qəbul edərək, Ermənistan hökumətindən su ehtiyatlarından siyasi təsir və ya təzyiq aləti kimi istifadəsinə son qoyulmasını tələb etmişdir. Ermənistan həmin qətnaməyə qətiyyən məhəl qoymadı və Sərsəng su anbarını humanitar və ekoloji terrorizm aləti kimi istifadə etməyə davam etdi. Ermənistan qəsdən qış aylarında su anbarını açaraq ətraf ərazilərdə daşqın törədir, yay aylarında isə suyu kəsərək keçmiş cəbhəyanı bölgədə yaşayan insanları və təsərrüfatları sudan məhrum edirdi. Ermənistan transsərhəd Oxçuçay çayını kəskin şəkildə çirkləndirir. Bu isə çayın Azərbaycan ərazisi boyu keçdiyi ərazinin ekoloji sistemini bərpaolunmaz deqradasiyaya məruz qoyur. Təəssüflər olsun ki, bəzi xarici şirkətlər də bu ekoloji cinayətdə iştirak edir".




Erməni qəsbkarları işğal altında saxladıqları dövrdə digər ərazilərə olduğu kimi, Bəsitçay qoruğuna da böyük zərər yetiriblər. Qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, odunцağını yandırıblar. Bir sözlə, burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub.

Xatırladaq ki, Bəsitçay qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə yaradılıb. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu.

BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrindəki çıxışında Prezident İlham Əliyev bir daha nəzərə çatdırmışdır ki, Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib: "Meşələrimizin 60 min hektarı məhv edilib, kəsilib və oğurlanıb, torpaqlarımız və çaylarımız çirkləndirilib və zəhərlənib... Ermənistan keçmişdə işğal altında olan ərazilərimizdə qanunsuz olaraq təbii sərvətlərimizi, o cümlədən qızıl və digər qiymətli metal və mineralları istismar etmiş, onları xarici bazarlara ixrac etmişdir. Tutarlı faktlara əsaslanaraq biz keçmişdə işğal altında olan ərazilərdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı və digər qanunsuz fəaliyyətlə məşğul olan müxtəlif ölkələrdən olan xarici şirkətləri müəyyən etmişik. Biz artıq həmin şirkətlərə qarşı hüquqi tədbirlərə başlamışıq. Onlar keçmişdə işğal altında olan ərazilərdə təbii sərvətlərimizi qanunsuz istismar etdiklərinə görə məsuliyyətə cəlb ediləcəklər".

Erməni faşistlərinin dağıtdığı şəhər və kəndlərimizi yenidən qurmaqla bərabər, onların təbiətimizə vurduğu "yara"ları da sağaldacağıq. Meşələri bərpa edəcək, yeni bağlar salacaq, çaylarımızın suyundan bəhrələnəcəyik. Bu, Prezidentimizlə xalqımızın qətiyyəti, məramı, məqsədidir və başlanmış böyük işlər uğurla davam edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Leyla ƏLİYEVA: "Arzum budur ki, Tahir Salahovun zəngin irsi bundan sonra da xalqlarımızı yaxınlaşdırmaqda davam etsin"









Oktyabrın 14-də Moskvada, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Azərbaycan" pavilyonunda SSRİ-nin, Azərbaycanın və Rusiyanın Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı Tahir Salahovun xatirə gecəsi və onun əsərlərinin sərgisi keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində Raya Abbasovanın müasir dövrün görkəmli sənətkarının həyat və fəaliyyətindən bəhs edən "Dialoq" kitabının təqdimatı keçirilib. Böyük sənətkarın nəvəsi Kayxan Salahov tərəfindən hazırlanmış "Sonsuzluq" adlı videoinstalyasiya da qonaqlara təqdim edilib.

Tədbirdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva deyib:

- Görkəmli rəssam Tahir Teymur oğlu Salahovun xatirə gecəsində sizi salamlamağa çox şadam. Bu, çox rəmzi haldır ki, bugünkü tədbir Moskvada, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Azərbaycan" pavilyonunda keçirilir. Doğma Bakı kimi, Moskva şəhəri də Tahir Teymur oğlu üçün çox əziz idi. Tahir Salahov öz yaradıcılığı ilə bütün dünyanı fəth etdiyinə baxmayaraq, onun həyatının əsas hadisələri məhz Rusiyada və Azərbaycanda baş verib. Onun nadir yaradıcılıq üslubu və xarakteri məhz burada formalaşıb. İncəsənət dünyanı gözəlləşdirir. Tahir Salahovun yaradıcılığı sayəsində biz onun dünyasını - harmoniya və xoş duyğularla dolu nurlu dünyanı görürük. Biz xoşbəxtik ki, bu heyrətamiz insanla bir dövrdə yaşamışıq, onunla tanış olmuşuq, ünsiyyət saxlamışıq. Onun sənətini fərqləndirən məhz sevgidir - Vətənə, təbiətə, insanlara sevgi. Tahir Salahovun qəhrəmanları onun müasirləri, neftçilər, yazıçılar, bəstəkarlardır. O, obrazlar yaratmır, insanlar yaradırdı. Ona görə də onun əsərlərinə baxanda inanırıq və hiss edirik ki, bunlar canlı əsərlərdir, həyatın özü kimi canlıdır.

Bu gün bizimlə olduğunuza görə sizə təşəkkür edirəm. Tahir Salahovun ailəsinə, Zelfira İsmayılovna, sizə bizi dəstəklədiyinizə görə, bu tədbirin hazırlanmasında iştirak etmiş, ona qəlbinin bir hissəsini qoymuş insanların hamısına təşəkkür etmək istəyirəm. Arzum budur ki, Tahir Salahovun zəngin irsi bundan sonra da xalqlarımızı yaxınlaşdırmaqda davam etsin, gənc istedadlara yol açsın.

Sizin hamınıza xoşbəxtlik, cansağlığı arzu edirəm, ən xoş diləklərimi bildirirəm. Sağ olun.

❖ ❖ ❖

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bu tədbirin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirərək qeyd edib ki, Heydər Əliyev Fondu və onun Rusiyadakı nümayəndəliyi Azərbaycan ilə Rusiya arasında qarşılıqlı münasibətlərin möhkəmlənməsi üçün Tahir Salahov kimi çox iş görür.

Polad Bülbüloğlu deyib: "Unudulmaz rəssam, unudulmaz insan, möhtəşəm filosof. Görünür, həyatda mənim çox bəxtim gətirib ki, 1960-cı illərin əvvəlindən başlayaraq biz ünsiyyətdə olmuşuq, çoxsaylı səfərlərdə olmuşuq, sovet dövründə, 1968-ci ildə Meksika kimi unikal ölkədə 20 gün bir yerdə olmuşuq. Bu, unudulmaz günlər idi. Həmin günlər həmişəlik yaddaşımızda qalıb. Bu gün görkəmli rəssamın aramızda olmamasını təsəvvür etmək çətindir. Lakin onun əsərləri var. Allaha şükür, biz elə bir dövrdə yaşayırıq ki, video, foto, kino var. Bir insan, şəxsiyyət kimi onun xatirəsi həmişə bizimlə olacaq. Deyirlər insanı xatırlayırlarsa, deməli, o yaşayır. Onu isə çox adam xatırlayır. Onun əsərləri əsasında Azərbaycan haqqında, Rusiya haqqında fikirlər yürüdəcəklər".

Dövlət Tretyakov qalereyasının baş direktoru Zelfira Trequlova Tahir Salahov ilə yaxından tanış olduğunu söyləyib. O deyib: "Ona bir insan kimi hədsiz hörmət edirdim və bir rəssam kimi onun qarşısında baş əyirdim. Mən Tretyakov qalereyasına gələndə uzun illər boyu düşündüyüm və arzuladığım bir işi görməyə nail oldum. Bu, Tretyakov qalereyasında Tahir Teymuroviçin əsərlərinin parlaq retrospektivi idi. 2016-cı ildə Tahir Salahovun Tretyakov qalereyasında ilk sərgisi açıldı. Tahir Salahov böyük rəssam olmaqla bərabər, həm də qeyri-adi zahiri və daxili gözəlliyə malik, inanılmaz dərəcədə müdrik və eyni zamanda çox təvazökar və nəzakətli adam idi".

Z.Trequlova vurğulayıb ki, Tahir Salahov qeyri-adi sənətkar idi. Onun yaradıcılığında milli motivlər Moskvada görkəmli müəllimlərindən öyrəndikləri ilə uzlaşırdı. O, kifayət qədər erkən yaşlarında xarici ölkələrə səfər etməyə başlayıb, o dövrün dünya incəsənətini görüb.

Tahir Salahovun nəvəsi, rəssam Kayxan Salahov böyük ustada həsr edilmiş "Sonsuzluq" adlı videoinstalyasiyanı təqdim edib. K.Salahov AZƏRTAC-ın müxbiri ilə söhbətində qeyd edib ki, bu iş gənc nəslin diqqətini Tahir Salahov yaradıcılığına cəlb etməlidir.

Tədbir iştirakçılarının diqqətinə təqdim edilmiş "Dialoq" kitabının müəllifi Raya Abbasova söhbətində bildirib ki, Tahir Salahov ilə onun tanışlığı çoxdan başlamışdı: "2000-ci illərin əvvəlində mən ondan ilk müsahibə aldım. Sonradan dəfələrlə görüşdük. Tahir Teymuroviçin 90 illiyinə həsr edilmiş kitab üzərində işləmək mənə təklif olunanda məmnuniyyətlə razılıq verdim. Tahir Teymuroviç haqqında kitab yaratmaq ideyasına görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya hədsiz minnətdaram".

Sərginin ekspozisiyasında rəssamın şəxsi arxivlərdə saxlanılan işləri, ailə albomundan fotoşəkillər təqdim olunub.

Tədbirdə Azərbaycanın və Rusiyanın görkəmli mədəniyyət xadimləri iştirak ediblər.

# "Zəngin hövzələr" layihəsi çərçivəsində nərə balıqları Kür çayına buraxılıb

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə oktyabrın 15-də Azərbaycanın daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpasına yönəlmiş "Zəngin hövzələr" layihəsi çərçivəsində nərə balıqlarının suya buraxılması mərasimi olub.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və IDEA İctimai Birliyinin rəsmilərinin, könüllülərin, məktəblilərin iştirakı ilə keçirilən tədbir zamanı akvakultura şəraitində yetişdirilmiş 10 min nərə balığı Kür çayına buraxılıb, həmçinin zavodun ərazisində ağacəkmə aksiyası keçirilib.

Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən məlumat verilib.

Məlum olduğu kimi, son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Böyük Britaniyanın "Mavi Dəniz Fondu" (BLUE) tərəfindən davamlı olaraq birgə mühafizə, bərpa və ictimai maarifləndirmə tədbirləri həyata keçirilir.

"Zəngin hövzələr" layihəsi balıq növlərinin təbii populyasiyasının artırılması, daxili su hövzələrində çirkləndirilmənin azaldılması, qanuni və sivil qaydalarla balıq ovunun təşviqi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Ötən ilin may ayında start verilmiş layihə çərçivəsində indiyədək ümumilikdə 3 milyona yaxın müxtəlif növ balıq körpəsi su hövzələrinə buraxılıb.

# Azərbaycan Ordusunun şəhid olan hərbi qulluqçusu dəfn edilib




Oktyabrın 14-də saat 18 radələrində qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan snayper atəşi nəticəsində şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Həmzəyev Əfqan Bəhman oğlu ilə Goranboy rayon Borsunlu kəndində vida mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, vida mərasimində şəhidin yaxınları, hüquq-mühafizə orqanlarının əməkdaşları və sakinlər iştirak ediblər. Vida mərasimindən sonra şəhid Əfqan Həmzəyev Borsunlu kənd qəbiristanlığında dəfn olunub.

Qeyd edək ki, Goranboy rayon Borsunlu kəndində anadan olan 19 yaşlı Əfqan Həmzəyev 1 il öncə həqiqi hərbi xidmətə gedib və onun həqiqi hərbi xidməti başa vurmağa 6 ayı qalıbmış.

# Gəncədə terror hadisələrinin ildönümü ilə əlaqədar "Unudulmaz tarix" adlı yürüş keçirilib




**Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Təhsil İdarəsi, Bakı şəhəri 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi və Gəncə Şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə 2020-ci ilin oktyabr ayında Gəncə şəhərində baş verən terror hadisələrinin ildönümünü qeyd etmək məqsədi ilə "Unudulmaz tarix" adlı yürüş keçirilib.**



Yürüşdə Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini - Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Adil Tağıyev, icra hakimiyyətinin məsul əməkdaşı Azər İbrahimov, Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin sektor müdiri Qeyrət Şirəliyev, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov, Gəncə Regional Mədəniyyət İdarəsinin müdiri Vasif Cənnətov, Gənclər və İdman Baş İdarəsinin müdiri Həmid Nəsirov, təhsil işçiləri, Bakı şəhəri 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi və Gəncə Şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək rəhbərləri və üzvləri, ümumtəhsil məktəblərinin direktorları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərindəki abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi dərin ehtiramla yad olunub.

Daha sonra tədbir iştirakçıları əllərində Gəncədə törədilən terroru əks etdirən şəkillər, plakat, şüar və bayraqlarla faciənin baş verdiyi məkanadək yürüş keçiriblər. Terror törədilən məkanda 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi və Gəncə Şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Kompozisiyalarda vətənpərvərlik mövzusunda şeirlər, mahnılar səslənib, səhnəciklər nümayiş etdirilib, terror nəticəsində həlak olanların xatirəsi anılıb, hadisə yerinə gül dəstələri, şamlar və oyuncaqlar düzülüb.

Sonda uşaqlar səmaya həlak olan dinc sakinlərin, o cümlədən məsum körpələrin, məktəblilərin xatirəsinə ağ şarlar buraxıblar.

# Şəhid ailələri və müharibə əlillərinə, həssas qruplardan olan digər şəxslərə 50 mənzil təqdim edilib

Oktyabrın 15-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Abşeron rayonundakı, Bakının Ramana və Xocasən qəsəbələrindəki yeni yaşayış komplekslərindən daha 50 mənzil şəhid ailələri və müharibə əlillərinə, gözdən əlilliyi olan şəxslərə, dövlət uşaq müəssisələrinin məzunlarına təqdim edilib.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, Abşeron rayonunda mənzillərin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov və Milli Qəhrəman İbad Hüseynov iştirak ediblər.

Nazir müavini Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun bir il əvvəl 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edib. O, postmüharibə dövründə şəhid ailələri və qazilərlə bağlı genişmiqyaslı dəstək tədbirlərini diqqətə çatdıraraq bildirib ki, ümumilikdə 31 min şəhid ailəsi üzvü və qaziyə, erməni terrorundan zərər çəkən şəxsə 39 min xidmət göstərilib. Bu ilin əvvəlindən şəhid ailələri və müharibə əlilləri üçün sosial ödənişlərin növbəti dəfə ciddi şəkildə artırıldığını qeyd edib.

O, ötən dövrdə 11 minə yaxın şəhid ailəsi və müharibə əlilinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzil və fərdi evlə təmin edildiyini, dövlət başçısının sərəncamı ilə 2021-2025-ci illərdə daha 11 min mənzil və fərdi evin bu kateqoriyalardan olanlara verilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, bu il onlara 3 min mənzil və fərdi evin verilməsi işləri aparılır.

A.Kərimov bu il şəhid ailələri və müharibə əlillərinə 1750-yə yaxın mənzilin verildiyini qeyd edərək deyib ki, eyni zamanda Vətən Müharibəsi Qəhrəmanları və ya onlardan şəhid olanların ailələrinin, gözdən əlilliyi olan şəxslərin, dövlət uşaq müəssisələri məzunlarının mənzillə təminatı üçün tədbirlər görülür.

Həmin mənzillər də daxil olmaqla nazirlik bu il ümumilikdə 2 mindən çox vətəndaşı mənzillə təmin edib. Nazir müavini onu da qeyd edib ki, bu gün şəhid ailələri, müharibə əlilləri ilə yanaşı, gözdən əlilliyi olan şəxslərə və dövlət uşaq müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarına da mənzillər verilir. Bu da ölkəmizdə bütün həssas qrupların dövlətin qayğısı ilə əhatə olunduğunu bir daha təsdiq edir.

Ehtiyatda olan baş çavuş, Milli Qəhrəman İbad Hüseynov şəhid ailələrinə, müharibə əlillərinə mənzillər verilməsinin onlara yüksək dövlət qayğısının daha bir təzahürü olduğunu vurğulayıb.

Mənzillərlə təmin edilən vətəndaşlar daim dəstəklə əhatə olunduqlarını bildirib, sosial-məişət şəraitlərinin yaxşılaşdırılması, müasir tələblərə uyğun yaşayış şəraiti olan yeni mənzillər aldıqları üçün Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***"Azərbaycan"***

# REGİONLAR



## Ağalıq kanalı beton üzlüyə alınıb

**Şabranda növbəti suvarma mövsümünə hazırlıq işləri çərçivəsində 7 min metr uzunluğunda torpaq məcralı Ağalıq kanalı beton üzlüyə alınıb.**

Şabran Suvarma Sistemləri İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, Ağalıq kanalı vasitəsilə 1000 hektardan artıq sahənin suvarılması daha da yaxşılaşacaq.

İdarənin əməkdaşları tərəfindən növbəti mövsümdə sahələrin vaxtında suvarılmasını düzgün təşkil etmək məqsədilə torpaq kanallar lil və kol-kosdan təmizlənir. Görülən işlər nəticəsində kanalların ötürücülük qabiliyyəti artırılır ki, bu da su itkisinin qarşısını alır. Kanalların təmizlənməsi işlərinə 12 ədəd ağır texnika cəlb olunub.

Şabran Suvarma Sistemləri İdarəsinin rəisi Adil Şamilov bildirib ki, rayonda yaz-yay suvarma mövsümü uğurla başa çatıb. Əvvəlcədən görülən meliorativ tədbirlər nəticəsində cari suvarma mövsümündə təsərrüfat sahibləri vaxtında suvarma suyu ilə təmin edilib.

Hazırda Şabranda 27 min hektar əkinəyararlı torpağı suvarmaq üçün 764 kilometr uzunluğunda təsərrüfatdaxili və təsərrüfatlararası suvarma kanalından istifadə edilir. Son illər rayonda 100 kilometrdən artıq torpaq kanal beton kanalla əvəzlənib.

2019-cu ildə aparılan meliorativ tədbirlərdən sonra Şabranda 9 min hektar sahə əkin dövriyyəsinə cəlb olunub. Əkinə yeni cəlb edilən sahələrin suvarılması məqsədilə ərazidə yeni qapalı sistem yaradılıb.

## Abşeronda təhsil işçiləri ilə görüş keçirilib



**Abşeron Rayon İcra Hakimiyyətində fərqlənən təhsil işçiləri ilə görüş keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin başçısı İradə Gülməmmədova çıxış edərək təhsil işçilərini əldə etdikləri uğurlara görə təbrik edib. Sonra 44 günlük müharibədə iştirak edən və şəhid olanlar bir dəqiqəlik sükutla yad olunub.**

İ.Gülməmmədova bildirib ki, bu gün müəllimlərin öhdəsinə daha böyük vəzifə düşür: “Onlar vətən üçün layiqli, vətənpərvər, bilikli, savadlı, hərtərəfli övlad yetişdirməlidirlər. Şagirdlərimiz gərək birtərəfli inkişaf etməsin, hər hansı peşəni seçməsindən asılı olmayaraq gərək tarixi, coğrafiyanı, xarici dilləri yaxşı bilsinlər. Sərhədlərimizi, qonşularımızı tanısınlar, dostla düşməni ayıra bilsinlər, siyasi biliyə malik olsunlar. Xarici ölkələrdə təhsil alarkən ölkəmizi layiqincə təmsil etsinlər və ölkəmiz haqqında düzgün məlumat çatdırsınlar”. Natiq onu da vurğulayıb ki, bu günlər tariximizin zəfər anlarıdır. Ali Baş Komandanın diplomatiyası, uzaqgörən siyasəti nəticəsində Azərbaycan Ordusu 44 gün ərzində düşmənə qalib gəldi və ermənilər kapitulyasiya aktına imza atmağa məcbur oldular.

Sonra İ.Gülməmmədova “Tərəqqi” medalına layiq görülən Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi İradə Talıblını, “Qabaqcıl təhsil işçisi” döş nişanına layiq görülən Məmmədli kənd orta məktəbinin tarix müəllimi Aidə Şərifovanı, Təhsil Nazirliyinin fəxri fərmanına layiq görülən Xırdalan şəhər 1 saylı tam orta məktəbin ingilis dili müəllimi Çiçək Cəfərovanı, Ceyranbatan 1 saylı tam orta məktəbin riyaziyyat müəllimi Xuraman Əhmədovanı və Masazır 2 saylı tam orta məktəbin kimya müəllimi Ülviyyə İbrahimovanı təbrik edib.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

## Regionlarda informasiya texnologiyaları sahəsində təlimçilərin hazırlanmasına başlanılıb

Azərbaycanda telefon rabitəsinin 140 illiyi münasibətilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (RİNN) dəstəyi, “İKT LAB” Tətbiq və Tədris Mərkəzinin təşkilatçılığı və “Aztelekom” MMC-nin tərəfdaşlığı ilə regionlarda informasiya texnologiyaları (IT) sahəsində təlimçilərin hazırlanmasına başlanıb.

RİNN-dən AZƏRTAC-a bildirilib ki, təlimin əsas məqsədi ölkəmizin müxtəlif regionlarında fəaliyyət göstərən IT mütəxəssislərinin təlimçilik bacarıqlarını yüksəltmək və regionlarda peşəkar IT təlimçilərinin sayını artırmaqdır. Bu təlimləri uğurla başa vuracaq mütəxəssislərin “İKT LAB” Tətbiq və Tədris Mərkəzinin regional təlimlərinə təlimçi qismində cəlb edilməsi nəzərdə tutulur. Təlimdə Gəncə, Naxçıvan, Şərur, Mingəçevir, Şəki, Zaqatala, Lənkəran, Şamaxı, Qazax, Şirvan, Ağdaş, Göyçay, Qəbələ, İmişli şəhərlərində yaşayan və müəyyən edilmiş tələblərə cavab verən şəxslər iştirak ediblər.

Bir ay müddətində intensiv formada keçiriləcək təlimdə iştirakçılara IT əsasları (IT texnik) üzrə təlimçilik bacarıqları öyrədiləcək. Əsas hissəsi onlayn, yekun hissəsi isə Bakıda təşkil olunacaq təlimi uğurla bitirən şəxslər “İKT LAB” Tətbiq və Tədris Mərkəzinin təlimçilik sertifikatı ilə təltif ediləcəklər.

## İsmayıllıda 30 min hektar sahəyə payızlıq taxıl əkiləcək

**İsmayıllı rayonunda payızlıq taxıl əkininə başlanılıb və qısa vaxtda 650 hektar sahədə səpin aparılıb.**

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, hazırda rayonun bütün ərazilərində, xüsusilə dağlıq zona olan Xankəndi, Quşencə və digər bir sıra icra nümayəndəliklərində fermerlər və fiziki şəxslər səpinin aqrotexniki qaydada aparılması və vaxtında başa çatdırılması üçün ciddi səy göstərilər. Hələlik səpin üçün sahələrə hər gün 30-dan çox texnika çıxır.

Səpində yüksək reproduksiyalı və sertifikatlı toxumlardan istifadə edilir.

◆ Reportaj



# Zəhmətin "ağ qızıl" bəhəri

## Biləsuvarda pambıq yığımı sürət götürür

**Oktyabr ayının ilk günləri havanın buludlu və yağmurlu keçməsi qanını qaraltmışdı. Əkib-becərdiyi sahələrin ancaq 10 faizini əllə yığdırmışdı. Qalan məhsul isə bəmbəyaz dona bürünmüş tarlada idi.**

“Allah var, rəhmi də var. Çəkilən zəhmət hədər getməz. Hər şey yaxşı olacaq. Ata-babalarımız oktyabra “ceyranın kölgəyə qaçan ayı” deyiblər. Belə getməz. Havalar çox güman ki, düzələr. Bir də axı zaman o zaman deyil. Xaricdən alınan təzə pambıqyığan maşınlar işə düşsə, bir də görəcəksən ki, beş-üç günə sahələrdə quru çöpdən başqa heç nə qalmayıb” - bu fikirlərlə “Niva”sına oturub kəndə - evinə qayıtdı. Günorta yeməyindən sonra yayın istisinin ağrı-acısını canından çıxarmaq üçün bir qədər yuxulayıb dincəlmək istədi. Axşam da ertədən yerinə uzanmazdan öncə yoldaşına tapşırdı ki, televizora baxıb hava haqqında məlumata qulaq assın.

Gecədən keçmiş - təqribən saat 2-də yuxudan oyananda evdə hamı yatmışdı. Tez eyvana çıxıb pəncərəni açdı. Axşamdan əsən küləkdən əsər-əlamət qalmamışdı. Göydəki ulduzları görcək özü-özünə pıçıldadı: “Şükür sənin böyüklüyünə, İlahi! Səsimizi eşitdin, bizi ümidsiz qoymadın”. Qayıdıb yenidən yatağına girsə də, gözlərinə yuxu getmədi. 35-40 dərəcə istidə becərmə zamanı keçirdiyi günlər bir-bir gəlib gözləri önündən keçdi. Alaq otlarını vuran qız-gəlinlərlə, suçu kişilərlə işin keyfiyyətinə görə mübahisələri, bəzən onları acıladığı məqamları yadına düşdü. Buna görə özünü qınadı. Ürəyində “Pambıq yığımı qurtarandan sonra gərək hamısını bir yerə yığıb süfrə arxasında könüllərini alım” dedi. Bu haqda fikirləşərkən sabah nə işlər görəcəyini götür-qoy etdi. Odur ki, sübh çağı durub maşınına oturdu, tarlaya getdi. Yol artıq təpimişdi. Günün yavaş-yavaş çıxması ilə dan yerinin aldığı əlvan rənglər əhvalını yaxşılaşdırdı. Sahənin kənarına çatıb maşını saxladı. Ətrafa diqqətlə göz gəzdirdi. Pambıq topalarının üstündə səhərin şehindən giləlunən damcıları görüb fikirləşdi: “Hava istiləşən kimi bunlar da buxarlanıb gedəcək”. Sahənin hər tərəfini gəzib-dolandıqdan sonra saatına baxdı. Artıq 11-ə işləmişdi. Pencəyinin yan cibinə qoyduğu mobil telefonunu götürüb müqavilə bağladığı “P-Aqro” MMC-nin Biləsuvar rayonunda yerləşən filialının sahə aqronomu Bəhruz Quliyevə zəng etdi:

- Bəhruz, mənəm, Rafiqdir. Sizi sahədən narahat edirəm. Səhər tezdən yuxudan durub bura gəlmişəm. Vəziyyət demək olar ki, düzəlir. Cərgələrin arası da təpiyib. Mənə elə gəlir ki, sabah səhər maşınlar işləyə bilər.

Sahə aqronomu onu dinləyib, günortadan sonra onun və digər fermerlərin həmin ərazidəki pambıq sahələrinə baş çəkəcəyini, vəziyyəti öz gözləri ilə görüb qərar verəcəyini və bu barədə axşam saatlarında ona nəticəsini bildirəcəyini söylədi. Belə də oldu. Həmin gün deyilən vaxtda sahə aqronomu B. Quliyev digər sahələrlə bərabər Rafiq Əzizovun sahəsinə də baş çəkdi. Pambıqyığan maşınların məhsuldar işləyə biləcəyini yəqin etdi. Axşamüstü idarəyə qayıdıb vəziyyətlə əlaqədar filialın direktoru Şakir Soltanova ətraflı məlumat verdi. Filialın direktoru pambıqyığanlarla bərabər, lafetlərin də Rafiqin və digər fermerlərin sahəsinə göndərilməsinə göstəriş verdi. Onu da dedi ki, bu barədə elə indidən onlara məlumat vermək lazımdır.

Deyilən kimi də oldu. Birisi gün səhər tezdən “Conder” markalı pambıqyığan maşın, arxasınca qoşa yedəkli traktor sahəyə yola düşdü. Onlar tarlaya çatanda payız günəşi iliq şüalarını ətrafa yayırdı. Fermer R.Əzizov sanki qar yağmış ağappaq sahənin kənarında dayanıb gözləyirdi. Onlar salamlaşandan sonra sahəyə girdilər. Rafiq sürücü-mexanizator Xalid Lətifova təcrübəli fermer kimi müraciət edərək inamla dedi:

- Hə, necədir, yaxşı məhsul yetişdirmişəm? İndi sən də göstər öz məharətini. Elə yığ ki, bir lopa pambıq belə itkiyə getməsin.

Mexanizator X.Lətifov da gülümsəyərək cavab verdi:

- Çalışarıq əlimizdən gələni əsirgəməyək, - dedi.

Bir neçə pambığın nəmliyini yoxladılar, yığıma heç bir təsiri olmasa da, liflərin çiyidlərini saydılar. Bundan sonra mexanizator iti addımlarla kombaynın kabinəsinə qalxıb mühərriki işə saldı. “Tarla gəmisi” cərgələr arası ilə irəliləməyə başladı. Şpindellər vasitəsilə götürülən pambıq sovrularaq bunkerə töküldü. Fürsətdən istifadə edib fermer Rafiq Əzizovla işi-gücü, dolanışığı barədə söhbət etdik.

- Əsgərabad kəndində doğulub böyümüşəm. Hələ orta məktəbdə oxuyarkən başqa yoldaşlarım kimi, mən də yay aylarında kəndimizdəki “Araz” kolxozunda pambığın becərilməsində yaxından iştirak edirdim. Əsasən alaq otlarını təmizləyirdik. Sentyabr ayında dərslər başlayan kimi məktəbi bağlayardılar. Oktyabrın sonunadək pambıq yığardıq. Bəlkə buna görə də aqronom olmaq arzusuna düşdüm. Orta məktəbi bitirib Salyan Kənd Təsərrüfatı Texnikumunun Aqronomluq fakültəsinə daxil oldum. 1992-ci ildə oranı bitirib kəndimizdəki kolxozda pambıqçılıq-taxılçılıq briqadiri kimi fəaliyyətə başladım. 1996-cı ildə kolxozlar ləğv edildi. Torpaqlar əhaliyə paylandı. Bizim də ailəyə 2,8 hektar torpaq payı verildi. Bir neçə il rayondakı Suvarma Sistemləri İdarəsində, “MKT- İK” ASC-nin Biləsuvar filialında işlədim. 2019-cu ildən indiyə kimi “P-Aqro” MMC-də mütəxəssis kimi çalışıram. Harada işləməyimdən asılı olmayaraq fermerlik fəaliyyətimi unutmuram. Son illər işimiz xeyli yaxşılaşıb. Sağ olsun dövlətimiz, subsidiya verir. Müqavilə bağladığımız şirkətlər bizə hər cür köməklik göstərirlər. Məsələn, mən “P-Aqro” MMC-nin filialı ilə hələ ilin əvvəlindən müqavilə bağlamışdım. Şumdan, əkindən başlamış son mərhələyədək mənə hər cür kömək göstərilmişdir. Belə iş prinsipi fermeri ürəkli edir. Becərmə zamanı heç bir çətinlik olmur. Bunun hesabına mən vegetasiya dövründə 6 dəfə kompleks becərmə aparmışam. Filialın mütəxəssisləri tez-tez sahəmə baş çəkərək öz göstərişlərini veriblər. Elə bilirəm ki, keçənilki qədər də olmasa, məhsulumuz son nəticədə bizi qane edəcək. Ötən il 17 hektarın hər hektarından 45 sentner məhsul götürdüm. Allahın evi abad olsun, yaxşı nəticədir. Qazancım da yaxşı oldu. Evimi əsaslı şəkildə təmir etdirdim, xarici markalı minik maşını aldım. Ailəmiz geninəboluna dolanır. Qoca atam və anam mənimlə qalırlar. Bir oğlum, iki qızım var. Qızlarımı köçürmüşəm. Dörd nəvəm var. Oğlum İnqilab Fövqəladə Hallar Nazirliyində işləyir. Bir neçə gün bundan öncə Qubadlıya göndərdilər. Nişanlıdır. İnşallah, gələn il toyunu edəcəyik.

O, sözünü yenidən işinin üstünə gətirdi:

- Keçən ilin nəticələri yaxşı olduğundan bu il icarəyə əlavə torpaq sahəsi götürdüm. 26 hektar mənim üçün o qədər də çox deyil. Başqa fermerlərimiz kimi, mən də sudan əziyyət çəkdim. Mən biləni, bu hal pambıq əkilən digər rayonlarda da olmuşdur. Neyləmək olar?! Təbiətin işidir. Vəziyyətin təkrarlanmaması üçün rayonda əlavə tədbirlər görülür. Mövcud olan su anbarına su yığılsa, 10 min hektar sahəni öz axını ilə, yəni elektrik enerjisi, yanacaq sərf etmədən suvarmaq olar. Yeri gəlmişkən onu da qeyd etmək istəyirəm ki, son vaxtlar pambıqçılıqda bütün xərclərin dəyəri, bütövlükdə pambığın maya dəyəri yüksəlmişdir. Bunun əvəzində pambığın bir kiloqramının satınalma qiyməti isə vur-tut 5 qəpik artırılmışdır. Pambıq əkən fermerlər istəyirlər bu iş ədalətlə, insafla həll olunsun. Axı pambıq ağır zəhmət, çoxlu xərc tələb edən bitkidir.

Müsahibim onu da vurğuladı ki, havaların hazırda rütubətli keçməsi ilə bağlı kolların yarpağını tökmək üçün hər hektara 600 qram əvəzinə 800 qram, 1 litr dərman vurub. Bu isə əlavə xərc deməkdir.

Bütün bunlara baxmayaraq, torpağın dilini, xüsusiyyətlərini yaxşı bilən biləsuvarlı əkinçilər pambıqçılığa həmişə olduğu kimi, bu gün də maraq göstərirlər. Bilirlər ki, bütün hallarda gəlirli sahədir. Əməktutumlu olmaqla bərabər, ixracyönümlüdür. Onu da qeyd edək ki, keçən mövsümdən etibarən Biləsuvarda, habelə Salyan və Neftçala rayonlarında yetişdirilən pambıq burada - Biləsuvardakı Pambıq zavodunda emal olunur. “P-Aqro”nun bu müəssisəsində 100 nəfərdən çox adam çalışır.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

## Mingəçevir abadlığından qalmır





**Mingəçevirdə yaşayış məhəllələrinin ardıcıllıqla kompleks şəkildə abadlaşdırılma işləri davam edir. Növbəti məhəllədə abadlıq və quruculuq işləri bu günlər şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılovun iştirakı ilə başlanmışdır. N.Nərimanov, Ş.İ.Xətai və A.Məmmədov küçələrinin əhatəsində yerləşən, abadlaşdırılması nəzərdə tutulan 135-ci məhəllədə ümumilikdə 16 yaşayış binası yerləşir və bu binalarda 3 min nəfərdan artıq əhali yaşayır.**

Abadlıq işləri ŞİH-in Memarlıq və tikinti şöbəsi tərəfindən hazırlanmış vahid plan əsasında texnoloji ardıcıllıq gözlənilməklə həyata keçiriləcək. İlkin mərhələdə kommunal xidmət təşkilatları istifadəyə yararsız naqil və boruları dəyişəcək, paralel olaraq isə məhəllədəki idman qurğuları, söhbətgahlar, xeyir-şər mağarları əsaslı təmir ediləcək. Bunun ardınca səkilər asfaltlanacaq və yaşıllıqlar salınacaq. Sonrakı mərhələdə binaların fasadları və giriş hissələrinin təmiri nəzərdə tutulub.

Məhəllə sakinləri qarşısında çıxış edən İ.İsmayılov bütün rayon və şəhərlərdə olduğu kimi, Mingəçevirdə də əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün geniş abadlıq-quruculuq işlərinin aparıldığından danışmışdır. Mingəçevirdə bütün məhəllələrin kompleks şəkildə abadlaşdırılacağını bildirən ŞİH-in başçısı əlavə etmişdir ki, əvvəllər bir neçə belə məhəlləmiz var idi və həmin məhəllələri nümunə göstərirdik, onu “Nümunəvi məhəllə” adlandırırdıq: “Ancaq artıq bu proses genişlənərək kütləvi xarakter alıb. Mərhələli şəkildə Mingəçevirdəki bütün məhəllələr abadlaşdırılaraq nümunəvi hala gətiriləcək”.

Eyni zamanda sakinlərlə görüşən İ.İsmayılov onların qarşılaşdıqları problemlərlə maraqlandı. Demək olar sakinlərin əksər hissəsi binalardakı kanalizasiya sistemindən narazılıq etdilər. ŞİH-in başçısı Mingəçevirdə kanalizasiya sisteminin yenidən qurulma işlərinin “Azərsu” ASC tərəfindən həyata keçirildiyini və işlərin artıq 50 faizinin başa çatdığını bildirərək əlavə etdi ki, işlər tam yekunlaşmadığı üçün bir sıra hallarda əhalinin narazılıqları haqlıdır. Bununla belə, şəhərin Su-Kanal İdarəsinin rəhbərliyinə kanalizasiya sistemində həlli vacib məsələləri imkan daxilində həll etməyi tapşıran icra hakimiyyətinin başçısı həmin gün əsaslı təmir olunacaq Ş.İ.Xətai küçəsində işlərin gedişi ilə də tanış oldu. Qeyd edək ki, təsdiq olunmuş plana əsasən, Ş.İ.Xətai küçəsində bütün yeraltı kommunikasiya xətləri yenidən qurulacaq, yol və səkilər təmir ediləcək asfaltlanacaq, qazon və yaşıllıq zolaqları salınmaqla yanaşı, ağaclar əkiləcək və müasir işıqlandırma sistemi quraşdırılacaq.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

## Aqrar sığorta ekspertlərinin gəlirləri açıqlanıb

Azərbaycanda aqrar sığortanın əhatə dairəsinin genişlənməsi bu sahə ilə əlaqədar tərəflərin də gəlirlərini artırmağa başlayıb. Yeni mexanizmin tətbiqi nəticəsində sürətlə inkişaf edən və faydalanan tərəflərdən biri də ölkəmizdə ilk dəfə fəaliyyətə başlayan müstəqil aqrar sığorta ekspertləri qrupudur. Hazırda qüvvədə olan aqrar sığorta qaydalarına əsasən, müstəqil ekspertlərin fəaliyyəti aqrar sığorta sistemi üçün mühüm əhəmiyyət daşıyır.




Sözügedən ekspertlər sığortalanma prosesində təsərrüfatlara baxış keçirir, buradakı vəziyyəti və riskləri qiymətləndirir, sığorta hadisəsi baş verdikdə isə hadisənin səbəbini müəyyən edərək dəyən zərəri hesablayırlar. Hadisə nəticəsində ödənişin edilib-edilməyəcəyi barədə qərar verilərkən ekspertin rəyi nəzərə alınır.

Müstəqil aqrar sığorta eksperti xidməti ödənişlidir. Xidmətin müqabilində Aqrar Sığorta Fondu tərəfindən ekspertlərə xidmət haqqı və onların təsərrüfatlara gedişi zamanı qət edilən məsafəyə görə yol xərci ödənilir. Aqrar Sığorta Fondu tərəfindən aqrar sığortanın tətbiqi genişləndikcə sistemlə əməkdaşlıq edən aqrar sığorta ekspertləri də yüksək gəlirlər əldə etməyə başlayıb. Ekspertlər qısa müddət ərzində ölkənin müxtəlif ərazilərində minlərlə kənd təsərrüfatı heyvanına, böyük əraziyə malik əkin sahələrinə baxış keçirib, onlarca sığorta hadisəsini araşdırıb, bu zaman minlərlə kilometr yol qət ediblər. Nəticədə onlara təkcə avqust ayında böyük məbləğdə xidmət haqqı və yol xərci ödənilib.

Bunu avqust ayında ən çox gəlir əldə edən 3 müstəqil aqrar sığorta ekspertinin nümunəsində görmək mümkündür. Avqustda ən çox gəlir əldə edən 3 müstəqil aqrar sığorta ekspertinin aylıq gəlirləri - 7 795, 5 225 və 4 366 manat olub. Aqrar sığorta prosesində çalışan digər ekspertlərin də aylıq gəlirləri bu göstəricilərdən asılı olaraq 1 000 - 4 200 manat arasında dəyişib.

Qeyd edək ki, müstəqil aqrar sığorta ekspertlərinin gəlirləri onların aktivliyindən - təsərrüfatlara çıxışları və müayinə etdikləri heyvanların sayından, qət etdiyi məsafədən asılı olaraq dəyişir. Ümumiyyətlə, müstəqil aqrar sığorta eksperti bütün dünyada, o cümlədən qardaş Türkiyədə də yüksəkgəlirli peşələrdən sayılır. Aqrar sığortanın əhatə dairəsi genişləndikcə aqrar sığorta ekspertlərinin sifarişləri və gəlirləri də artacaq.




# Ən qədim qılınc - Aslantəpənin 10 gücü

**Bu gün əsasən muzeylərdə sərgilənən, bəzən isə qiymətli hədiyyə kimi satılan qılınc bir vaxtlar qanlı döyüşlərin ən strateji silahı olub. Qədim vaxtlarda həm də müdafiə vasitəsi olan qılıncın hazırlanmasının maraqlı tarixçəsi var.**

Tarixdən məlum olan ən qədim nümunə Aslantəpə adlanan qılınclardır. Onlar Türkiyənin Malatya şəhərində yerləşən Aslantəpə kurqanından tapılıb. Burada aparılan qazıntılara Roma Sapienza Universitetinin professoru arxeoloq Marcella Frangipane rəhbərlik edib. O, arxeoloji tədqiqat zamanı kəşf edilən 9 qılıncın dünyanın ən qədim metal qılınc növü olduğunu vurğulayıb. 1976-cı ildə Aslantəpədə tapılan, 5 min yaşı olan bu qılınclar misdən hazırlanıb və bəzilərinin dəstəkləri gümüş naxışlarla bəzədilmiş formadadır.



Aslantəpə qılıncları 10 bənzər qılıncdan ibarətdir. 9-u Malatyada aşkar edilsə də, 10-cusu Venesiyadadır. Bu qılınc Venesiyadakı muzeylərdən birində 2017-ci ilə qədər yanlış eksponat kimi Orta əsr kolleksiyasında fərqli məlumatla sərgilənirdi. Arxeologiya üzrə doktorantura tələbəsi, italyan Vittoria Dall muzeyi ziyarət edərkən bu qılıncı görüb və ona aid lövhədə qeyd olunan tarixin doğru olmadığını düşünərək qılıncın yenidən tədqiq olunmasını təklif edib. İki ildən çox davam edən araşdırmalardan sonra arxeoloqun haqlı olduğu təsdiqlənib. Nəhayət, 5 min yaşlı qılınc Orta əsr nümunələri arasında sərgilənmək üçün çox qədim olduğu aşkarlandıqdan sonra əsl yerində yerləşdirilib.

Qılıncın Malatyadan Venesiyaya XIX əsrdə gedib çıxdığı güman edilir. Bu ehtimalın yaranmasına səbəb isə qılıncın yanında tapılan köhnəlmiş zərfdir. Zərfdə bunun hədiyyə olaraq XIX əsrdə yaşamış bir şairə bağışlandığı qeyd olunub. Onun da hədiyyəni özü ilə gedərkən Venesiyaya apardığı bildirilir. Bununla da qılıncın Venesiyaya bu üsulla getdiyi məlum olub.

## Qoruyucu "Dendra"

**Savaşların davam edən illərdə daha qanlı və mərhəmətsiz olması hərbi texnikalara gətirilən yeniliklərlə yanaşı, şəxsi geyim vasitələrinin də formalaşmasına təkan verdi. Zirehli geyimlərin hazırlanmasında əsas meyar hərəkət etməyə mane olmadan döyüşçünü xarici zərbələrdən qorumasıdır. Buna görə də bu tip geyimlərin ərsəyə gətirilməsi olduqca çətin idi.**



Günümüzə məlum ən qədim zirehli geyim Tunc dövrünə aid "Dendra"dır. Bu geyimi 1960-cı ildə isveçli arxeoloqlar Yunanıstanda yerləşən Arqolis bölgəsindən tapıblar. Bürüncdən hazırlanan zirehli geyim eramızdan əvvəl 15-ci əsrə aid edilir. Döyüşçünü boynundan dizinə qədər əhatə edən zireh 18 ədəd fərqli ölçülü bürünc təbəqədən ibarətdir. Burada istifadə olunan ümumi materiallar dəri və bürüncdür. Dəmir lövhələr bir-birinə dəri kəmərlə bağlanıb.

Geyim məzardan qismən talan edilmiş formada tapılıb. Bərpa edildikdən sonra bədən hissədə 2 əsas silindr formalı metal gövdə, dizdən yuxarı hissələri qorumaq üçün 3 ön və 3 arxa lövhələr, dairəvi formalı boyun qoruyucu və iki çiyin qoruyucu yer alır. Bu geyimlə vuruşan döyüşçünün qılıncla savaşdığı həmin qəbirdən tapılan 2 qılıncdan aydın olur. Digər bir məqamla isə bu geyimlə ox və yaydan istifadə etmək çətin olduğundan yalnız yaxın məsafə üçün nəzərdə tutulan silahlardan istifadə edilib. Hazırda "Dendra" zirehli geyimi Yunanıstanda Nafplion Arxeologiya Muzeyində sərgilənir.

## Fişəngdən silaha

**Silahı işlək vəziyyətə gətirib istifadənin nəticəsini tamamlayan barıt təməl funksiyasını yerinə yetirir. İlk barıtdan IX əsrdən etibarən Çində, daha sonra isə Ərəbistan, Hindistan və Avropa ölkələrində istifadə edilmişdir. Əvvəllər onun istifadə məqsədi fişənglər üçün nəzərdə tutulsa da, sonralar odlu yaylarda tətbiq olunmağa başlanıb. Barıtın kəşfi artıq ibtidai vasitələrdən təkmilləşdirilmiş sursatlara gedən yolun əsasını qoymuşdur. Odlu silahlar da X əsrdə Çində ixtira edilib. Lakin bu silaha dair yalnız ipək parça üzərində çəkilmiş təsvir mövcuddur.**



Günümüzə qədər gəlib çıxan 1288-ci ilə aid ən qədim silah nümunəsi "Heilongjiang" adını daşıyır. Çində hazırlanan bu tapançaya mərmi lülənin içindən daxil edilirdi. Silahı istifadə etmək üçün 2 əsgər lazım idi. Bir əsgər tapançanın ucunu hədəf istiqamətə tutur, digər əsgər isə barıtı alovlandırmaqla silahdan atəş açırdı. Belə olduğu təqdirdə dəqiq hədəfi tuşlamaq da olduqca çətin olurdu. Bunlara baxmayaraq, tapança döyüşlərdə düşməni qorxutmaq üçün təsirli vasitələrdən sayılırdı.

Mexaniki alovlandırılan silahlar inkişaf etdirildikdən sonra tətikli tapançalar istehsal olunmağa başlandı. Müasir silahların sələfi sayılan matchlock (kibrit kilidi) mexanizmli silah 15-ci əsrdə hazırlanmışdı. Bu silahda daha əvvəl mövcud olan bir çox problemlər aradan qaldırılmışdı. Artıq silahla atəş açmaq üçün yalnız tətiyə toxunmaq kifayət edirdi. Bununla da tapançadan bir nəfər asanlıqla faydalana bilirdi. Lakin sürətliliyi zəif olduğu üçün əsasən sakit və rahat şəraitdə istifadəsi əlverilişli hesab olunurdu.

Mərmi sayının artırılması ilə birdən çox atışı həyata keçirən tapançaların tarixi "Colt Revolver" adlı silahdan başlayır. Bu tapança Samuel Colt tərəfindən icad edilərək 1836-cı ildə patentləşdirilmişdi, xəzinə tutumu 5 mərmidən ibarət idi. Texas ordusu tərəfindən alınaraq istifadə olunmuşdu. Bundan sonra 1846-cı ildə hazırlanan "Colt Walker" tapançası isə 6 mərmili silahların ilk versiyasıdır. Əhali arasında geniş yayılan bu silah müharibələrdə istifadə edilirdi, eləcə də kovboyların sevimlisi idi.

## Balaca Villidən dağıdıcı hərəkətlər

**Müharibələrin amansızcasına dünyanı bürüməsi hərbi sahədə yeni texnika ideyalarının formalaşmasına və istehsalına təkan verirdi. Hər bir dövlət özünümüdafiə üçün bu vasitələrə ehtiyac duyurdu. Atış gücü olduqca qüvvətli, birbaşa düşmən hədəfini darmadağın etməyə qadir zirehli vasitə olan tank hərbi gücün əsas göstəricilərindəndir.**

Əslində, tanklar min illərdir ki, mövcuddur. Keçmişdə misirlilər və yunanlar savaş maşınları olaraq tanka bənzər vasitələrdən istifadə ediblər. Lakin əsl tanklar I Dünya müharibəsi zamanı meydana çıxıb. İlk tank prototipi 1915-ci ildə İngiltərədə "Little Willie" (Balaca Villi) ləqəbi ilə hazırlanıb. Bu tank nümunə kimi hazırlandığı üçün savaş meydanına çıxarılmayıb. 1916-cı ilə qədər bu prototip əsasında bir çox hazırlıqlar görüldükdən sonra dünyanın ilk tankı olan "Mark 1" meydanlarda görünməyə başlayıb. Hətta ilk dəfə 1916-cı ildə Fransa cəbhəsində irəliləyən ingilislərin bu zirehli vasitəsi almanları təşvişə salıb. Lakin aylar sonra bu tankın mexanizmindəki çatışmazlıqlar, istifadəsinin çətinliyi bir çox tankçını zəhərləyərək öldürüb və ya dəhşətli səsdən kar edib. Bütün bu uğursuzluqlara baxmayaraq ingilislər və fransızlar tankın hərbi sahədə üstünlüklər qazandıracağına inanırdılar. Bununla da 1918-ci ilə qədər ingilislər təxminən 2600 tank, fransızlar isə "Renault FT"ni hazırlayaraq 3000 tank istehsal etmişdilər.



Almanlar tank istehsalına bir qədər gec başlayıblar. Bunun səbəbi I Dünya müharibəsində məğlub olan Almaniyanın Versal sülh müqaviləsinin şərtlərinə əsasən bir çox məhdudiyyətlərlə qarşı-qarşıya olması idi. Almaniyada 1934-cü ildə hazırlanan ilk müasir tank "Panzer I" adlanır. Tank 7.92 mm-lik iki pulemyotdan ibarət olub. Bu tank hərbi sənayenin inkişafına keçid vasitəsi hesab edilir. Sonrakı illərdə tankın təkmilləşdirilmiş modelləri olan "Panzer II, III, IV" və digərləri hazırlanmışdı. Hitler Almaniyasında müharibədə tankdan istifadənin yeni konsepsiyasını irəli sürən Haynts Quderian bu sahənin əsas simalarındandır.

## İlk kimyəvi silah

**Müharibələrin dəhşətli vasitələrindən biri olan kimyəvi silahlar düşməni öldürmək və ya qarşı tərəfi yararsız hala salmaq üçün zəhərli maddələri özündə cəmləşdirir.**



2009-cu ildə ingilis arxeoloqlar tarixdə kimyəvi silahlardan ilk dəfə harada istifadə edildiyini müəyyənləşdiriblər. Bəlli olub ki, kimyəvi silahdan ilk dəfə farslar 256-cı ildə Romanın məşhur "Dura Europos" qalasını mühasirəyə alan zaman romalıları məğlub etmək üçün qatran və kükürdün qarışığı olan zəhərli vasitə kimi istifadə ediblər. Onlar tunellərdəki sobalardan bu kimyəvi maddəni daxil edərək 20 Roma əsgərinin ölümünə səbəb olublar.

Əsrlər boyu kimyəvi silahlar bir çox müharibələrin əvəzsiz seçimi olub. Daha kəskinlərinin hazırlanması üçün olduqca geniş tədqiqatlar aparılıb. Sənayenin inkişafı ilə XIX əsrdə təkcə yeni növ maddələr deyil, hətta onları daha çox miqdarda istehsal etməyin səmərəli yollarını da tapıblar.

Kimyəvi silahlardan ən dəhşətli şəkildə I Dünya müharibəsində istifadə edilmişdi. 1915-ci ildə almanlar məğlubiyyətlə üz-üzə qaldıqlarından Fransa və Əlcəzair əsgərlərinə qalib gəlmək üçün onları 150 tondan çox xlor qazı ilə zəhərləyiblər. Qeydlərə görə, bu, almanların sınağı idi, lakin bundan sonra xardal, fosgen kimi zəhərli qazlardan istifadə edərək 91 min insanın ölümünə imza atmışdılar.

1925-ci ildə imzalanan Cenevrə protokolunda müharibələrdə boğucu, zəhərli qazların və bakterioloji vasitələrin istifadəsinə qadağa qoyulub. Buna baxmayaraq, müasir dövrdə yenə də belə kimyəvi silahlardan amansızlıqla istifadə edilir.

## Ağır artilleriya - topun yaranması

**Çinlilər barıt kimi partlayıcı maddəni yaratmaqla bir çox döyüş silah-sursatlarını kəşf etməyə başladılar. Ağır artilleriya qurğusunun yaradılması da məhz onların adı ilə bağlıdır. Lakin hələ də topun kim tərəfindən, nə vaxt icad edildiyinə dair dəqiq məlumat mövcud deyil.**

Topların Avropaya gəlişi isə XIII əsrdən sonra olmuşdur. Avropalılar davamlı olaraq bir-birləri ilə müharibə şəraitində olduqlarından daha qırıcı qurğulara ehtiyac duyurdular. İlk hazırlanan ibtidai topların prototipləri kiçik ölçülü idi. Bir çox əsgər tərəfindən istifadə olunan artilleriya qurğusu saatda yalnız 2 top ata bilərdi. Atış məsafəsi isə 200-220 metr təşkil edirdi. Lakin qitələrə yayıldıqca başqa üsullarla daha güclü topların hazırlanması üçün cəhdlər edilirdi.



Ağır artilleriya qurğusu üzrə dünyada məşhur olan Osmanlı İmperiyası topdan ilk dəfə 1389-cu ildə Kosovo döyüşündə istifadə etmişdi. Topçuluğun inkişafı Fateh Sultan Mehmedin dövründə daha da irəliləmişdi. Xüsusilə İstanbulun fəthində topların xüsusi əhəmiyyəti olmuşdur.

Ümumilikdə, XV əsrə qədər artilleriya qurğusu dəmir halqalarla bir-birinə bərkidilmiş metal borulardan hazırlanırdı. 10 atışdan sonra isə qurğu dağılırdı. Hətta 1478-ci ildə Fransa kralı XI Luizin sifarişi ilə hazırlanan dəmir top sınaqdan keçirildiyi vaxt əlavə barıtın tökülməsi ilə parçalanmış və 15 nəfər həlak olmuşdu.

Bürüncdən hazırlanmış ilk toplara Qərbi Prussiyada rast gəlinir. Bu toplar artıq digər toplara nisbətən olduqca dayanıqlı və möhkəm idi. 1870-ci ildə isə fransızlar tuncdan hazırlanmış ağır artilleriya qurğusunu Fransa-Prussiya müharibəsi əsnasında istifadə etmişdilər.

*Hazırladı: Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*




## Süni gözlər



**Görmə qüsurlu insanların bu problemini həll edən süni gözlər israilli alimlər tərəfindən hazırlanıb. Bu texnoloji yenilik dünya işığından tamamilə məhrum olmuş xəstələri yenidən həyata qaytaracaq.**

İlk implantasiya əməliyyatı bu ilin yanvar ayında həyata keçirilib. Xəstə hər iki gözündən məhrum 78 yaşlı kişi idi.

Əməliyyat zamanı süni gözlər insan toxumalarına birləşdirilib və ilk addım uğurla nəticələnib. Bir neçə gündən sonra sarğı açılıb, xəstə ailə üzvlərini görüb və hətta kitab da oxuyub.

O, artıq görmə qüsurlu deyil.

## Uçan taksilər və pilotsuz təyyarələr üçün hava limanları

**Tıxaclardan və zəhərli hava tullantılarından taqətdən düşmüş şəhərlərin rahat nəfəs almağa ehtiyacı var. Alternativ nəqliyyat vasitələrinin meydana çıxması vəziyyətdən çıxış yolu ola bilər.**

Son zamanlar elektrikli uçan taksilər haqqında tez-tez eşidirik. Yaxın gələcəkdə onları səmada tez-tez görəcəyik. Amma bu nəqliyyat vasitələrinin istifadəyə veriləcəyi təqdirdə onlar üçün dayanacağa da ehtiyac olacaq. İlk belə məkan İngiltərənin Koventri şəhərində bu ilin sonunda istifadəyə veriləcək.



Bu pilot layihə dövlət tərəfindən maliyyələşdirilir.

## Meşə yanğınları səslə söndürüləcək



**Qlobal istiləşmə meşə yanğınlarının sayının artmasına səbəb olub. Bu səbəbdən mütəxəssislər çoxdandır ki, itkilərin sayını azaltmaq, daha az insan əməyi, büdcə və vaxt sərf edərək bu təbii fəlakətin öhdəsindən gəlmək üçün çalışırlar.**

Amerikanın Corc Meyson Universitetinin tədqiqatçıları maraqlı bir yeniliyə imza atıblar. Onlar yüksək səsə sahib pilotsuz təyyarələrin köməyilə yanğınları söndürməyə nail olublar. Belə ki, səs təzyiq dalğalarından meydana gəldiyindən ondan yanğının ətrafındakı havanı dağıtmaq üçün istifadə edilir. Bu zaman havanın tərkibindəki oksigen qazı alova çatmır və nəticədə yanğın "boğulur".

## Sürücüsüz yük maşınları

**Yollarda sürücüsüz nəqliyyat vasitələrini görməsək də, bu tip xəbərlərə öyrəşmişik. Lakin artıq bir sıra ölkələrdə qatarlar maşinistsiz idarə olunur. İndi isə növbə yük maşınlarındadır.**



Uzun müddət logistika sahəsinin gündəmində olan bu yeniliyin reallaşmasına lap az qalıb. Əgər danışıqlar müsbət nəticə verərsə, "Mersedes" və "Peloton" şirkətləri sürücüsüz yük maşınlarının istehsalına başlayacaq.

Amma yeniliyin həyata keçirilməsinin müsbət və mənfi cəhətləri var. Əvvəl müsbət cəhəti barədə. Belə maşınların istifadəsi həm vaxt, həm də büdcə baxımından əlverişlidir. Yəni kompüterlərin dincəlmək üçün fasiləyə ehtiyacı olmur, onlara maaş verilmir və sürətin artıb azalması nəticəsində yanacağa xeyli qənaət edilir. Mənfi tərəfi isə sürücülərin və yük maşınlarının dayanacaqlarında çalışanların işsiz qalmaq ehtimallarıdır.

## Özünü "müalicə edən" betonlar



**Beton tikinti sənayesində ən çox istifadə edilən materialdır. Lakin bir sıra amillər onun tədricən çatlamasına və yararsız hala düşməsinə səbəb olur. Bunlar hava şəraiti, betona qatılan komponentlərin keyfiyyətsizliyi və texniki səhvlərdir.**

Əlbəttə ki, çatları bərpa etmək mümkündür, ancaq bu, pul və vaxt tələb edir, üstəlik inşaatın léngiməsinə səbəb olur. Həm də əgər problem vaxtında həll edilməsə, bu bədbəxt hadisələrə gətirib çıxara bilər.

Amerikanın Kolorado Universitetinin alimləri özünü "müalicə edən" beton yaratmağa nail olublar. Onun hazırlanmasında qum, gel və bakteriyalardan istifadə edilib. Bu qarışığın 200 illik yararlılıq müddəti var, yalnız su və oksigenlə təmasda olduqları təqdirdə "oyanırlar".

"Canlı" betonlar mükəmməl strukturu sayəsində üzərində olan çatları bərpa edə bilir. Çat baş verən zaman yaranan boşluqlarda bakteriyalar çoxalır və beləliklə də, özünüyeniləmə prosesi başlayır. Bu proses üç həftə davam edir.

İnsanların həyatını və təhlükəsizliyini qoruyan bu yenilik xüsusilə təbii fəlakətlər zamanı insanlara bir növ qalxan olacaq, köməyinə gələcək.

## 7 saatda 7 milyard dollar itki



**Oktyabrın 4-ü "Facebook"un uğursuz günü kimi tarixə düşdü. Belə ki, Mark Zukerberqin sahibi olduğu "Facebook", "Instagram" və "Watsapp" sosial şəbəkələri dünyanın hər yerində 7 saat ərzində fəaliyyət göstərmədi. Bu rəqəmsal problem şirkətə 7 milyard dollar ziyan vurdu.**

Yaranmış problem sosial şəbəkələrin internetdən, şəbəkədən kənar qalmasına səbəb olub, yəni internet onları serverlərə yönəldə bilməyib. Buna səbəb isə "Facebook" mühəndislərinin təməl şəbəkədə etdikləri yenilənmə olub. Sosial şəbəkələrdən istifadə etmək artıq mümkün olsa da, problem tam həll olunmayıb.

Şirkət tərəfindən bildirilir ki, istifadəçilərin məlumatlarının oğurlanması və kiberhücum iddiaları həqiqəti əks etdirmir.

## Təmassız temperatur ölçən robot

**Çin mühəndisləri insanların temperaturunu təmassız ölçə bilən robot hazırlayıblar.**



Bu robotun insanlardan üstünlüyü ondadır ki, heç bir yoluxma təhlükəsi olmadan kütləyə daxil olub yoxlaya və eyni anda bir neçə insanı müayinə edə bilir.

Robot xüsusi termometr ilə təchiz olunub. Bunun sayəsində cihaz dərhal bütün izdihamı yoxlayır və ehtiyac olduqda həkimlərə məlumat ötürür.

Temperatur ölçən cihazların əsasən dəmiryolu stansiyalarında, hava limanlarında, metro və xəstəxanalarda istifadəsi nəzərdə tutulub.

## "Ağıllı" saplar

**Amerikanın Ayova ştatında 17 yaşlı Deyzi Teylor infeksiya zamanı rəngini dəyişən cərrahi saplar hazırlayıb.**

Yaraya infeksiya yoluxduğu halda dərinin pH səviyyəsi 5-dən 9-a yüksəlir. "Ağıllı" saplar bu problemi aşkar edərək rəngini parlaq qırmızıdan tünd bənövşəyiyə dəyişir. Tamamilə biotəbii tərkibdə olan tibbi material rəngini çuğundur suyundan alır.

Şagirdin nədən məhz bu ixtira üzərində işləməsinin əsas səbəbi isə köklərinin afrikalı olmasıdır. Belə ki, texnoloji inkişafın çox aşağı səviyyədə olduğu bu materikdə insanların əməliyyat zamanı, xüsusilə də qadınların keysəriyyə əməliyyatı zamanı infeksiyaya yoluxub dünyalarını dəyişmə halları yüksəkdir.




## Maraqlı yeniliklər

- Amerika alimləri havanın keyfiyyətini proqnozlaşdırmaq üçün süni intellektdən istifadə etməyə başlayıblar. Mənbələrin məlumatına əsasən, peyk və yerüstü stansiyalarla müqayisədə kompüterlər bu işin öhdəsindən daha yaxşı gəlir. Araşdırma zamanı mütəxəssislər havanın keyfiyyətini ətraflı təhlil etmək məqsədi ilə kompüter modelləşdirməsindən istifadə ediblər.
- İngilis mütəxəssisləri insan bədəninin hərarəti ilə işləyən yığcam enerjidoldurma qurğusu təqdim ediblər. Bu miniatür termoelektrik generatoru olan yeni qurğu elastikdir və elektrik şəbəkəsindən enerji tələb etmir. Qurğunun gücü saat və ya fitnes-bilərziyini enerji ilə doldurmaq üçün kifayət edir, sürətli gəzinti vaxtı cihaz təxminən 5 volt elektrik enerjisi verir. Barmağa və ya biləyə bərkidilən qurğunun prototipi iki formada (üzük və bilərzik) təqdim edilib.
- "Facebook" şirkəti "CTRL-Labs" startapının texnologiyalarına əsaslanan yeni əlavə edilmiş reallıq interfeysinin hazırlanması haqqında məlumat verib. Virtual obyektlərlə qarşılıqlı əlaqənin qurulması üçün beyin siqnallarını oxuya bilən interfeys bilərzik prototipləri üzərində çalışır. Bu qurğu üçün əzələlərin elektrik aktivliyini qeydə almağa imkan verən elektromiyoqrafiya texnologiyasından istifadə edilir. Gələcəkdə belə bilərziklər ən müxtəlif jestləri tanıyaraq onları virtual və ya əlavə edilmiş reallığa daşıya biləcək, amma hələ ki, ən sadə jestləri tanıyır. Belə bilərziklər gələcəkdə fiziki düymələri olmayan virtual klaviaturada çap etmək üçün tətbiq edilə bilər. Bilərziklər istifadəçinin çap tərzinə tez uyğunlaşa və səhvləri avtomatik düzəldə biləcək, ümumilikdə belə yanaşma mətni klaviatura ilə müqayisədə daha sürətli yığmağa imkan verəcək.
- Yaponiyanın "Toppan" poliqrafiya şirkəti elektron ödəniş sistemlərində nağdsız əməliyyatların gigiyenası üçün steril plastik kartlar təqdim edib. Antivirus plastik kartın hazırlandığı materialın tərkibinə daxil olunmuşdur. Bu plastik kartların istifadə müddəti digərləri ilə eyni deyil. İstifadəsi 5-7 gün üçün nəzərdə tutulmuşdur.
- Çin Kosmik Texnologiyalar Akademiyasının tədqiqatçıları smartfon və digər qurğuları enerji ilə doldurmaq üçün qeyri-adi xarici akkumulyator hazırlayıblar. Cihaz mayenin qızması sayəsində enerji hasil edə bilən xüsusi bir termosdur. Mütəxəssislərin sözlərinə görə, onun hazırlanmasında aerokosmik sahədə tətbiq edilən yüksək effektivli termoelektrik dəyişdirici texnologiyasından istifadə olunur. Qaynar maye ilə doldurulan cihaz istiliyi elektrik enerjisinə çevirir və digər qurğuları enerji ilə doldurmağa imkan verir. Bu zaman enerji qapaqda toplanır və smartfon kabel vasitəsilə ora qoşulur. Termos suyu $65^0$C-dən yuxarı temperaturda 6 saat ərzində isti saxlaya və $9^0$C-dən aşağı temperaturda 6 saat soyuq saxlaya bilir.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# 50GB mobil internet hədiyyəli ən yeni model iPhone 13 smartfonları artıq "Azercell" Eksklüziv mağazalarında

**Daha öncə elan edildiyi kimi, "Apple Inc." şirkətinin Azərbaycandakı eksklüziv telekommunikasiya tərəfdaşı "Azercell Telekom" 15 oktyabr tarixindən etibarən ölkəmizdə ən son model iPhone cihazlarının satışını gerçəkləşdirir.**




Uzun müddətdir gözlənilən iPhone 13, iPhone 13 Pro, iPhone 13 Pro Max və iPhone 13 Mini smartfonları artıq "Azercell" Eksklüziv mağazalarında müştərilərin ixtiyarına verilib. Ölkə ərazisini yüksəkkeyfiyyətli 4G şəbəkəsi ilə təmin edən "Azercell" qeyd olunan "Apple" şirkətinin istehsal etdiyi ən yeni nəsil cihazlar ilə inanılmaz sürətdən zövq almaq imkanı yaradır. Belə ki, "Azercell"in Eksklüziv mağazalarından iPhone 13, iPhone 13 Pro, iPhone 13 Pro Max və iPhone 13 Mini smartfonları əldə edən müştərilərə ölkənin aparıcı mobil operatoru tərəfindən 3 ay müddətində 50GB həcmində internet paketi hədiyyə olunur.

Xatırlatmaq istərdik ki, hələ 8 oktyabrdan etibarən yeni iPhone modellərinin limitsiz imkanlarını "Azercell"lə kəşf etmək üçün bütün müştərilərə öncədən sifariş imkanı yaradılmışdı.

Ən müasir texnologiyaları istifadəçi rahatlığı ilə bir araya gətirən yeni iPhone modelləri "Super Retina XDR" displeyləri, enerjiyə qənaət etməyə imkan verən batareya, daha səmərəli A15 çipi və sürətli enerji yığma sistemi ilə təchiz olunub.

Ətraflı məlumat üçün **https://www.azercell.com** saytına daxil ola bilərsiniz.

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 18.10.2021-ci ildə saat 22:30-dan etibarən 19.10.2021-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

*Təkrar*

## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti 110/35/6 kV-luq "Salyan" Yarımstansiyası, 110/35/10 kV-luq "Yevlax" Yarımstansiyası, 110/35/10 kV-luq "Ucar" Yarımstansiyası, 110/35/10 kV-luq "Masallı" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 4 (dörd) LOT üzrə keçirilir:

**LOT - 1.** 110/35/6 kV-luq "Salyan" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 2.** 110/35/10 kV-luq "Yevlax" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 3.** 110/35/10 kV-luq "Ucar" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 4.** 110/35/10 kV-luq "Masallı" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

İştirak etmək istəyənlər iştirak haqlarını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanında, "Azərenerji" ASC-nin Tender və müqavilə şöbəsindən ala bilərlər.

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC-nin Mərkəz filialı**
**Kod: 200026**
**VÖEN:9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Azad Məmmədov , telefon: 490-09-27, 598-05-56;

Tenderdə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik istehsalı işlər üzrə başqa layihələrin və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların və yarımstansiyaların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 noyabr 2021-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **25 noyabr 2021-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **26 noyabr 2021-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır. İclas onlayn qaydada keçiriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər (onlayn qaydada).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Digər malların alınması" xərc maddəsi üzrə malların satın alınması məqsədilə 10.09.2021-ci ildə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən, "Simplex" QSC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən "Qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı"na dair dərman vasitələrinin satın alınması üzrə keçirilmiş açıq tender prosedurunun qalibləri 2 iddiaçı "Zeytun Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir.

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ilə "Zeytun Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 22.07.2021-ci ildə *2 885 454.30* ***(iki milyon səkkiz yüz səksən beş min dörd yüz əlli dörd manat 30 qəpik) manat*** və 27.09.2021-ci ildə Agentlik ilə "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında isə *1 418 902.80* ***(bir milyon dörd yüz on səkkiz min doqquz yüz iki manat 80 qəpik) manat*** məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# "Boko Haram" silahı yerə qoyur?

Nigeriya Təhlükəsizlik Qüvvələrinə iki həftə ərzində "Boko Haram" terror təşkilatının 13 min 243 silahlısı və onların ailə üzvləri təslim olub. Nigeriya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi Bernard Onyekonun jurnalistlərə verdiyi məlumata görə, "Boko Haram"a qarşı əməliyyat oktyabrın 1-dən 14-dək davam edib. Bu müddət ərzində "Boko Haram"ın 29 yaraqlısı zərərsizləşdirilib, daha 13 nəfəri saxlanılıb.



Əməliyyatlar nəticəsində çoxlu sayda terrorçu yaralansa da, onlar gizlənə biliblər. Bununla belə, təhlükəsizlik qüvvələri böyük miqdarda döyüş sursatlarını ələ keçirməyə müvəffəq olub.

Son illər təşkil edilən əməliyyatlara baxmayaraq, "Boko Haram" əvvəlkitək Afrikanın ən sıx məskunlaşmış ölkəsində - Nigeriyada təhlükəsizlik üçün ciddi problem olaraq qalmaqdadır.

Xatırladaq ki, "Boko Haram" 2000-ci illərin əvvəllərindən fəaliyyət göstərir. 2009-cu ildən bəri 20 mindən artıq adam bu ekstremist təşkilatın qurbanı olub. "Boko Haram" 2015-ci ildən həmçinin Kamerun, Çad və Niger kimi qonşu ölkələrə də hücum edir. Çad gölü rayonunda azı 2 min nəfər terrorçuların qurbanı olub. Təkcə Nigeriyada terror hücumları və qarşıdurmalara görə yüz minlərlə insan evlərini tərk etmək məcburiyyətində qalıb.

"Boko Haram" Nigeriyanın radikal islam sektasıdır. 2002-ci ildə ölkənin şimalında Məhəmməd Yusif adlı şəxs tərəfindən yaradılıb. Əsas məqsədi bütün Nigeriya ərazisində şəriətin tətbiqi və Qərb həyat tərzinin silinməsidir. 2014-cü ilin may ayında adı BMT Təhlükəsizlik Şurası tərəfindən terror təşkilatları siyahısına salınıb.

Müsəlmanların Qərb cəmiyyətinə bənzər istənilən siyasi və ictimai fəaliyyətini "haram" sayaraq qadağan edən "Boko Haram" Nigeriya dövlətinin imansızlar tərəfindən idarə edildiyini düşünür. Rəsmi adı "Camaatu Əhlis Sünnə Liddəəvəti vəl-Cihad" ərəbcə "Peyğəmbərin təlimini və cihadı təbliğ etməyə əqidəli olanlar" deməkdir. Qruplaşmanın yerləşdiyi ölkənin şimal-şərqində yerləşən Mayduguri şəhərinin sakinləri bu təşkilatı daha qısa adla - "Boko Haram" deyərək çağırırlar. Hausa dilindən bu ad "Qərb təhsili haramdır" kimi tərcümə edilir. Əvvəlcə "boko" saxta mənasını versə də, sonradan "Qərb təhsili" mənasını daşımağa başlayıb.

1903-cü ildə Nigeriya, Niger və Kamerunun cənub hissəsində mövcud olmuş Sokoto xəlifəliyi Britaniya nəzarətinə keçəndən bəzi ərazilərdə müsəlmanlar Qərb təhsilinin yayılmasına müqavimət göstəriblər. Onlar uşaqlarının hökumətin təkidinə baxmayaraq, belə məktəblərə göndərilməsinin əleyhinə çıxıblar. Məhəmməd Yusif 2002-ci ildə Mayduguridə "Boko Haram" qrupunu təsis etdikdən sonra isə müsəlman məktəblərini və məscidlərini əhatə edən dini kompleks yaradıb. Nigeriyadan və qonşu ölkələrdən bir çox yoxsul müsəlman ailələri uşaqlarını belə kompleksə göndəriblər.

Lakin "Boko Haram" təkcə təhsilə müdaxilə etməklə kifayətlənməyib. Bu təşkilatın siyasi məqsədi İslam dövlətinin qurulması olub və nəticədə məktəb cihadçıların səfərbər edilməsi yerinə çevrilib. 2009-cu ildə "Boko Haram" Mayduguridə inzibati binalara, polis məntəqələrinə hücumlar edib. Şəhərin küçələrində atışma nəticəsində yüzlərlə "Boko Haram" tərəfdarı öldürülüb, minlərlə sakin şəhəri tərk edib. Nigeriyanın təhlükəsizlik qüvvələri, nəhayət, qrupun qərargahını ələ keçirib, döyüşçüləri həbs edib, Məhəmməd Yusifi öldürüblər. Onun cəsədi dövlət televiziyası ilə nümayiş olunub və təhlükəsizlik qüvvələri "Boko Haram"ın məhv edildiyini bildirib. Lakin döyüşçülər yeni lider - Əbubəkr Şekaunun rəhbərliyi altında yenidən qruplaşıblar. Ötən il dekabrın 15-də "Boko Haram" Katsina ştatının Kankara şəhərində 333 məktəblini oğurlayıb.

Qruplaşma eləcə də Nigeriyanın şimal və mərkəzi hissəsində bir sıra qanlı hücumlar həyata keçirib, o cümlədən kilsələr, avtobus dayanacaqları, barlar, hərbi kazarmalar, polis məntəqələri və hətta paytaxt Abucada BMT mənzil-qərargahında terror aktı törədib.

2021-ci ilin may ayında 46 yaşlı Əbubəkr Şekau intihar edib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə 08.09.2021-ci ildə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən, "Simplex" QSC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvləri Milli Məclisin deputatı Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı, professor

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mahmud Məmmədov "GünayBank" ASC-nin Kredit Departamentinin direktoru Vaqif Cəfərova əzizi

**MƏHYƏDDİN QARA OĞLU ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Günay Sığorta" ASC-nin rəhbərliyi və kollektivi şöbə müdiri Fizuli Cəfərova əzizi

**MƏHYƏDDİN QARA OĞLU ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Respublikası Milli Məclisin deputatı, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının kollektivi Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı, filologiya elmləri doktoru, professor

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"GünayBank" ASC-nin rəhbərliyi və kollektivi bankın Kredit Departamentinin direktoru Vaqif Cəfərova əzizi

**MƏHYƏDDİN QARA OĞLU ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorluğu və Azərbaycan tarixi kafedrasının professor-müəllim heyəti universitetin elmi katibi, dosent

**İRADƏ QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədr müavini Pərviz Ələkbərova atası

**SADAY MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5610
Sifariş 1929
Qiyməti 40 qəpik